# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 07 (3520) Cümə axşamı / 22-28 fevral 2024-cü il Qiymәti 40 qәpik


MÜSAHİB

## Xocalıda soyqırımı qurbanları anılacaq



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

***1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni faşistlərinin Xocalıda törətdiyi soyqırımı faciəsindən düz, 32 il ötür. Xocalı soyqırımı qurbanlarının, soyqırımı şahidlərinin o gün dünyanın gözü qarşısında tapdanan hüququnun "portreti" anım günündə yenidən qarşımızda dayanacaq. Lakin "Pozulan hüquqlarımız dünya müstəvisində necə qorunur? Cinayətkarlar beynəlxalq məhkəmə qarşısında cəzasını aldımı?" sualı açıqdır. Bu gün torpağı, yurdu düşmən tapdağından tam azad olunan xocalılılar yaralarını bağlayıb, haqqını bərpa edib, yenidən o yerlərdə xoşbəxt yaşaya biləcəklərmi? "Həftə içi"nə müsahibə verən Milli Məclisin deputatı Elman Məmmədov mühüm məqamlara diqqət çəkib.***

*Yaxın vaxtlarda geriyə dönüşümüzlə bağlı o sevincli xəbərləri alacağıq*

▸▸ Səh. 2

# Münhen gündəliyi

***Son həftə Azərbaycanın siyasi həyatında mühüm hadisələrlə yadda qaldı. Xüsusilə Prezident İlham Əliyevin öncə Münhen Təhlükəsizlik Konfransında iştirak üçün Almaniyaya, daha sonra isə qardaş Türkiyəyə rəsmi səfər proqramı xeyli zəngin idi. Dövlət başçısının Münhen səfəri və orada keçirdiyi görüşlər yeni dövr Azərbaycanın xarici siyasət kursunun, gözləntilərinin və bölgədəki reallıqların qarşı tərəfdən necə qəbul edildiyini bir daha aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyırdı. Qeyd edək ki, Prezident İlham Əliyevin Münhenə sonuncu səfəri əvvəlkilərdən fərqli olub. Budəfəki səfərə İlham Əliyev Azərbaycanın bütün ərazilərində keçirilən prezident seçkilərinin qalibi, bütöv, suveren Azərbaycanın Prezidenti kimi getmişdi. Artıq dünya birliyi Azərbaycanın gücünü, qüdrətini daha yaxından hiss etdi.***



Münhen Təhlükəsizlik Konfransı istər yüksəksəviyyəli təmsilçilik baxımından, istərsə də müzakirəyə çıxarılan məsələlərin aktuallığı nöqteyi-nəzərindən əhəmiyyətli beynəlxalq platformalardan biri hesab olunur. Prezident İlham Əliyev ötən həftə bu mühüm platformanın yaratdığı imkanlardan istifadə edərək, ölkəmizin haqlı mövqeyini və beynəlxalq aktorlardan legitim gözləntilərini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Azərbaycan Prezidentinin ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borq və qarşı tərəfin müraciətinə əsasən ATƏT-in Baş katibi, Münhen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti xanım Helqa-Mariya Şmid ilə görüşdə səsləndirdiyi fikirlər, ortaya qoyduğu birmənalı mövqe xüsusilə diqqət çəkir. Bu mövqe ATƏT-in Minsk qrupu, şəxsi nümayəndəlik institutunun, artıq keçmişin qalığı olmasının xatırlanması idi. Dövlət başçısının açıq şəkildə ATƏT rəsmilərinə, avropalı siyasətçilərə düşdükləri çətin vəziyyəti xatırlatması, ciddi maliyyə sıxıntıları fonunda xərclərin optimallaşdırılmasına çağırış etməsi, bunun yolunun isə Minsk qrupu kimi lazımsız təsisatların ləğvindən keçdiyini xatırlatması məntiqli və birmənalı mövqe kimi qiymətləndirilir. Prezident İlham Əliyev kifayət qədər açıq olan bu mövqeyi ilə opponentlərinə faktiki o mesajı verdi ki, 28 il boyunca vasitəçilik institutunun sığındığı siyasi mandatın gündəliyi 44 günlük Vətən müharibəsi nəticəsində öz aktuallığını itirib, Azərbaycan savaş meydanında Ermənistanın işğalına son qoymaqla Cənubi Qafqazda beynəlxalq hüquqa söykənən yeni siyasi reallıq yaradıb.

■ **Rusiyalı politoloq Sergey Osinkinin də qənaətincə, Ermənistandan fərqli olaraq Azərbaycan Münhen Təhlükəsizlik Konfransına avropalı "cənablar"dan hər hansı yardım, vasitəçilik xahiş etməyə deyil, dünyanın siyasi və iqtisadi xəritəsinin yenidən cızıldığı bir vaxtda ölkəmizin xarici siyasətinin əsas konturlarını çatdırmağa, qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etməyə, Avropanın enerji təhlükəsizliyi ilə bağlı məsələlərdə öz fikir və təkliflərini bölüşməyə gedib.**

Hansı ki, Rusiya-Ukrayna müharibəsi fonunda "enerji aclığı" yaşayan Avropa üçün bu, daha vacibdir. Hər bir görüşdə Azərbaycanın bu ilin dekabr ayında ev sahibliyi edəcəyi COP29 mötəbər beynəlxalq tədbiri əsas müzakirə mövzularından biri oldu. Bu tədbirin timsalında Azərbaycana inamın, etimadın, dövlət başçısı İlham Əliyevin irəli sürdüyü hər bir təşəbbüsün, qəbul etdiyi qərarın beynəlxalq əməkdaşlığa böyük töhfə olduğu xüsusi qeyd edildi.

Münhen görüşlərində ən mühüm məqamlardan biri Prezident İlham Əliyevin görüşlərinin məhz qarşı tərəflərin istək və arzuları əsasında reallaşması idi. Bu məqam bir daha göstərir ki, Azərbaycanın artan nüfuzu, ölkəmizin sahib olduğu resurslar və nəqliyyat dəhlizi imkanları avropalı tərəfdaşlarımız üçün həyati əhəmiyyət daşıyır. Bunun məntiqi nəticəsi olaraq COP29 konfransının Azərbaycanda təşkil edilməsi ilə bağlı qərarın verilməsində nümayiş etdirilən yekdillik və dəstəyin heç də təsadüfi olmadığı bir daha təsdiqlənir. İstər Almaniya kansleri Olaf Şoltsun ev sahibi olaraq təşkil etdiyi, lakin ikitərəfli formatda aparılan Azərbaycan-Ermənistan danışıqları, istərsə də ABŞ dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevlə görüşündə də yuxarıda qeyd etdiyimiz məqamlar ciddi şəkildə nəzərə çarpdı. "Münhen konfransı çərçivəsində Almaniya kansleri Şolsun təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderlərinin görüşü göstərdi ki, Azərbaycan istənilən platformada, istənilən vasitəçilərin iştirakı ilə görüşlərin tərəfdarıdır. Əsas odur ki, ədalətli olsunlar, sözün əsl mənasında vasitəçilik missiyasını həyata keçirsinlər".

> *Avropa da Azərbaycana təzyiq göstərməklə nəyəsə nail olmayacağını anlayıb*

> *ABŞ Azərbaycanla əməkdaşlıq etmək istəyirsə, bu məqamları nəzərə almalıdır*

> *Rusiya-Ukrayna müharibəsi fonunda "enerji aclığı" yaşayan Avropa üçün bu, daha vacibdir*

■ **Bunu hafta.az-a politoloq Rəşad Bayramov Almaniya kansleri Şolsun təşəbbüsü ilə Azərbaycan-Ermənistan liderlərinin görüşü zamanı ortaya çıxan məqamlarla bağlı bildirib.** R.Bayramov Almaniya görüşünü Ermənistanın bundan əvvəlki görüşlərdə götürdüyü öhdəlikərinin yenidən təkrarlanması, tərəflərə hər hansı təzyiq edilməməsi baxımından normal hesab edib. Bildirib ki, xarici işər nazirlərinin sülh gündəliyi ilə bağlı görüşlərin bərpası, delimitasiya komissiyası və sair məsələlər bundan əvvəlki görüşlərdə razılaşdırılsa da, bir daha gündəmə gətirilməsi maraqlarımıza cavab verir.

"Azərbaycan Ermənistandan fərqli olaraq istənién platformada - Rusiyanın, ABŞ-nin, Avropa dövlətlərinin təşəbbüsü ilə keçirilən görüşlərdə öz mövqeyindən geri addım atmayaraq konkret maraqlarını gündəmə gətirib. Konkret Şolsun təşəbbüsünə gəlincə, o, tərəflər arasında vasitəçi kimi iştirak etmir. Görüşdə iki tərəf - Azərbaycan və Ermənistan var idi. Şols ev sahibi ölkənin nümayəndəsi kimi görüşdə iştirak edirdi. Biz Almaniyanın bir tərəf kimi görüşdə iştirakından danışa bilmərik. Bizim üçün daha arzuolunan məqam hər hansı bir tərəfin iştirakı olmadan ikitərəfli görüşlərin keçirilməsidir. Əgər Ermənistan ikitərəfli görüşlərin keçirilməsindən özünü narahat hiss edirsə, kiminsə görüşə qatılması Azərbaycan üçün problem deyil. Problem Fransa kimi neytrallığını qorumayan, Ermənistandan çox ermənilik edən tərəflələrlə bağlıdır. Bizim hansısa platformalarda öz maraqlarımızdan geri çəkilməyimiz olmayıb, bundan sonra da olması mümükün deyil".

▸▸ Səh. 3

MÜSAHİB



**Musa Qasımlı,**
Milli Məclisin deputatı, professor

■ Ölkələr və xalqlar arasında münasibətlərdə dövlət rəhbərlərinin şəxsi münasibətinin özünəməxsus yeri olur

■ Prezident İlham Əliyev andiçmə mərasimində bildirdi ki, bizi başqa bir yerdə gözləmirlər, Türk Dövlətləri Təşkilatı bizim ailəmizdir

■ Prezident İlham Əliyevin Türkiyəyə səfəri zamanı Türkiyə-Azərbaycan Universitetinin yaradılması haqqında sazişin imzalanması bizim tariximizdə bir ilkdir

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...



Zəngilanın Alıbəyli kəndi belə olacaq

GÜNÜN SİTATI

"Yaponiya COP29-la bağlı Azərbaycana köməklik göstərməyə hazırdır"



**Vatanabe Katsuya,**
Yaponiyanın Azərbaycandakı səfiri

KARİKATURA



Ermənistanın dövlət siyasəti

## Kimdir müqəssir?!

**Vəfa Rəşidova,**
psixoloq

Onlar özləri o qədər aşağılanmış ailədə "formalaşıblar" ki, bu istər-istəməz özünü göstərməli idi.

▸▸ Səh. 7

STATİSTİKA




■ **2024-cü ilin yanvar ayı ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda proqnoza nisbətdə 52,9 mln. manat və ya 15,4% artım qeydə alınıb.**

Dövlət Sosial Müdafiə Fondundan verilən xəbərə görə, büdcə təşkilatları üzrə daxilolma ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,6 mln. manat və ya 10,9%, qeyri-büdcə təşkilatları üzrə isə 48,1 mln. manat və ya 19,9% artımla olub.



▸▸ Səh. 6

## Qərb Ukraynanı qurban verir?!

## PREZİDENTİN İŞ GÜNÜ

# Sərəncam



**"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.**

Ordubad rayonu Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Ümummilli Lider Heydər Əliyevin «Azərbaycanın incise" adlandırdığı Ordubadın adına ilk dəfə V əsrin yazılı mənbələrində rast gəlinir. Rayonun ərazisi Qədim Daş dövründən başlayaraq Son Orta əsrlərə qədərki dövrə aid abidələrlə zəngindir. Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Qapıcıq dağının cənub-şərq yamacındakı Qaranquş yaylağında Tunc və İlk Dəmir dövrlərinə aid edilən, üzərində ov və rəqs səhnələri, müxtəlif işarələr və damğalar olan qaya parçaları aşkar edilmişdir ki, bu da əcdadlarımızın həyat tərzini, dünyagörüşünü, adət-ənənələrini izləməyə imkan verir. Rayonun ərazisindəki Xarabagilan şəhər yeri Orta əsrlər dövrünün şəhər həyatını, təsərrüfatını, sənətkarlığını, müdafiə sistemini, su təchizatını və memarlığını tədqiq etmək üçün unikal arxeoloji abidədir.

Rayonun inzibati mərkəzi Ordubad şəhəri qədim tarixə malikdir. XVII əsrin əvvəllərində Ordubadda Cümə məscidi, mədrəsə, buzxana, qeysəriyyə, hamam və karvansaralar tikilmiş, Anbaras, Kürdatal, Üçtürləngi, Mingis və Sərşəhər məhəllələri, Ərasət meydanı ansamblı, üç meydan ətrafında örtülü bazar kompleksi salınmışdır. Ordubadın əsas su təchizatı olan kəhriz sistemi də bu dövrdə yaradılmışdır. Şəhərin küçə şəbəkəsi Cümə məscidinin yerləşdiyi mərkəzi meydandan şüa şəklində şaxələnərək müxtəlif məhəllələrin əsasını təşkil edir. XVII-XVIII əsrlərdə inşa edilmiş Cümə, Anbaras, Sərşəhər, Dilbər və Təkeşiyi məscidləri öz tarixi və mədəni əhəmiyyətini bu gün də saxlayır.

Azərbaycan Respublikası Konstitusiyası 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın tarixi və mədəni irsinin nadir nümunələrindən olan Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə qərara alıram:

1. Ordubad Tarix-Memarlıq Qoruğunun ərazisi "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu (bundan sonra - Qoruq) elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Qoruğun sərhədlərini və mühafizə zonasını üç ay müddətində müəyyənləşdirib təsdiq etsin;

2.2. Qoruğun ərazisinin xüsusi rejimini dörd ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Qoruğun maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər görsün;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Qoruğun fəaliyyətinin təmin edilməsi ilə bağlı tələb olunan zəruri xərclərin maliyyələşdirilməsi Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaiti hesabına həyata keçirilsin.

# Xocalıda soyqırımı qurbanları anılacaq

***1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni faşistlərinin Xocalıda törətdiyi soyqırımı faciəsindən düz, 32 il ötür. Xocalı soyqırımı qurbanlarının, soyqırımı şahidlərinin o gün dünyanın gözü qarşısında tapdanan hüququnun "portreti" anım günündə yenidən qarşımızda dayanacaq. Lakin "Pozulan hüquqlarımız dünya müstəvisində necə qorunur? Cinayətkarlar beynəlxalq məhkəmə qarşısında cəzasını aldımı?" sualı açıqdır. Bu gün torpağı, yurdu düşmən tapdağından tam azad olunan xocalılılar yaralarını bağlayıb, haqqını bərpa edib, yenidən o yerlərdə xoşbəxt yaşaya biləcəklərmi? "Həftə içi"nə müsahibə verən Milli Məclisin deputatı Elman Məmmədov mühüm məqamlara diqqət çəkib.***

## Müsahib

***- Bu gün Xocalı da daxil olmaqla, Azərbaycanın bütün ərazilərində suverenliyimiz bərpa edilib. Xocalıda vəziyyət necədir? Xocalılılar geriyə dönməyə hazırdırlarmı?***

- 2020-ci il sentyabrın 27-də düşmən üzərində əks-hücuma keçən Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Zəfər qazanaraq bütün ərazilərimizi, Xocalını, erməni faşistlərinin qırğın törətdiyi əraziləri azad edib, öz nəzarəti altına aldı. Ərazilərimizdəki separatçıların, işğalçıların, terrorçuların kökü kəsilib, torpaqlarımız azaddır. O gündən bu yana yaraları qan ağlayan şəhid ailələri, soyqırımı şahidlərinin, bütün xocalılıların ruhu sərinləndi. Xocalının erməni zülmünə tuş gələrək, qanımızın töküldüyü o torpaqlar bu gün tam olaraq Azərbaycanın nəzarətindədir və xocalılılar çox da uzaq olmayan bir vaxtda öz yurdlarına geri dönəcəklər. Bu gün azad olunan ərazilərdə, ilk növbədə, təhlükəsizlik tədbirləri ilə bağlı işlər aparılır. Məlumdur ki, ermənilər bu illər ərzində bütün əraziləri minalayıblar. Hazırda o ərazilər mina və partlamamış silah-sursatdan təmizlənir. Bundan başqa, paralel bərpa quruculuq, tikinti işləri gedir. Yollar salınır, su çəkilir, enerji, qaz, rabitə və sair kommunikasiya xətlərinin təminatı həyata keçirilir. Şəhər və bəzi kəndlərdə elektrik təminatı, demək olar ki, hazır vəziyyətdədir.

***- Xocalılıların öz yurdlarına qayıdışı ilə bağlı hansı yeniliklər var?***

- Bu gün xarici güclərin, düşmənlərin Azərbaycana qarşı qərəzli davranışına baxmayaraq, torpaqlarımız azaddır, xocalılılar, bütövlükdə Azərbaycan Xocalı soyqırımını 32 il sonra düşmənə zəfər çalmış bir ölkənin vətəndaşı olaraq öz torpağında anacaq. Bu, xocalılılar üçün bir təsellidir. Xocalılılar bu gün onlara bu sevinci yaşadan Azərbaycan Ordusuna, Ali Baş Komandana minnətdardır. Yaxın vaxtlarda geriyə dönüşümüzlə bağlı o sevincli xəbərləri alacağıq. Xankəndiyə, Xocalıya, Şuşaya, Malibəyliyə, Kərkicahana, Xocavəndə qayıdış başlanacaq. Bu qayıdışı həyata keçirmək üçün müvafiq işlər görülür.

***- 32 il - bu uzun zamandan sonra Xocalı soyqırımı Xocalıda anıla bilərmi, orada hansısa abidənin yaradılması nəzərdə tutulurmu?***

- 26 fevralda Xocalıda anım mərasiminin keçirilməsi gözlənilir. Ola bilər ki, müəyyən məhdud qrup Xocalı sakinlərinin iştirakı ilə orada anım mərasimi keçirsin. Novruz bayramında tam da olmasa da, müəyyən ailələr bayramı Xocalı şəhərində keçirə biləcəklər. Bu istiqamətdə müəyyən gözləntilər var. Xocalı işğaldan azad olunandan sonra mətbuat, müxtəlif televiziya kanalları ilə birlikdə, müxtəlif QHT-lərin təşəbbüsü ilə çox sayda xocalılılar, şəhid ailələri, soyqırımın şahidləri, əsir və girovluqda olmuş insanlarımız son 3-4 ay ərzində Xocalının özündə, kəndlərində, soyqırımında zamanı kütləvi qırğınlar törədilən yerlərdə olublar. Dövlətimiz tərəfindən bunun işıqlandırılması, xatirə-anım abidəsinin qurulması məsələsi və digər tədbirlərin görülməsi nəzərdə tutulub. Bu, tədricən həyata keçirilir və yaxın vaxtlarda hər kəs bunu görəcək. Eyni zamanda, çox yaxın zamanda xocalılıların torpaqlar azad olunandan sonra o yerlərə gedərkən keçirdiyi hissləri, təəssüratları ilə televiziya vasitəsilə tanış ola biləcəksiniz. Hələlik, bu barədə danışmaq istəmərəm. Şübhə yoxdur ki, Xocalı qurbanlarının ruhu dövlətin, xalqın qəlbə əzmi ilə keçirdiyi hisslərlə yenidən yaşayır.

> “
>
> *Yaxın vaxtlarda geriyə dönüşümüzlə bağlı o sevincli xəbərləri alacağıq*

***- Rusiya sülhməramlılarının Xocalıda qalışı və fəaliyyətində nə dəyişib?***

- Sülhməramlılar Azərbaycana gələn ilk vaxtdan yerləşdikləri əsas mərkəz Xocalı aeroportunun ərazisi idi. Bu gün də orada müəyyən yerlərdə qalırlar. Sülhməramlıların Xocalıda, yaxud harada olmaları, nə işlə məşğul olmaları bizim üçün heç bir əhəmiyyət kəsb etmir. Bütün səlahiyyət, nəzarət Azərbaycanın müvafiq qurumlarının əlindədir. Sülhməramlılar 2020-ci ildə ərazilərimizə gələndən sonra məşğul olduqları özbaşına işləri davam etmək səlahiyyətində, hüququnda və imkanında deyillər. Onlar anladılar ki, bura Azərbaycan ərazisidir, səlahiyyətlərinə aid olmayan qanunsuz missiya daşımağa ixtiyarları yoxdur.



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

***- Xocalı soyqırımını törədən Ermənistan və havadarlarının beynəlxalq məhkəmə qarşısına çıxarılaraq, cəzalarını almaları üçün hansı addımlar atılmaqdadır?***

- Xocalının pozulan haqqının, hüququnun bərpası və qatil cinayətkarların öz cəzalarını almaları üçün hər il olduğu kimi, bu il də beynəlxalq təşkilatlara, müxtəlif dövlətlərin parlamentlərinə, rəsmi qurumlarına müvafiq müraciətlər göndərilib və göndəriləcəkdir. Azərbaycan xalqı, dövləti Xocalıda beynəlxalq məhkəmələrdən cinayətkarların öz cəzasını almasını istəyir, tələb edir. Qərbin, Avropanın isə bir çox ikiüzlü dövlətlərin, beynəlxalq təşkilatların uzun illər Azərbaycan həqiqətlərinə göz yumduğu, qərəzli, ədalətsiz yanaşması hamımıza yaxşı məlumdur. Bu, ikili standart, haqsızlıq Xocalıda erməni qaniçənlərinin 366-cı alayın dəstəyi ilə törətdiyi soyqırımından sonra xüsusilə əndazəsini aşdı. Azərbaycan torpaqlarını dağıdan, tarixi abidələrini məhv edən, insanlarını - uşaqları, qocaları, qadınları qətlə yetirən, girov götürən, onlara qarşı ağla sığmayan vəhşiliklər törədən ermənilərin törətdiyi cinayətlərə görə, Avropanın, Qərbin nüfuzlu təşkilatları Ermənistana "İşğalçısan", "Soyqırımı cinayətkarısan" demədi, qınamadı, sanksiyalar tətbiq etmədi, cinayətkarlar məhkəməyə cəlb olunmadı. Otuz il Azərbaycan Dövləti, xalqı dünyanın ədalətinə güvənərək, haqqın öz yerini tutacağını gözlədi. Hələ də Xocalı cinayətkarları beynəlxalq məhkəmələrdə öz cəzasını almayıb. Bir neçə erməni öz xoşu ilə yaşayış yerini tərk etdiyinə görə, az qala, bizə qarşı sanksiya tətbiq etməyə çalışdı. Bu, qəbuledilməz, arzuolunmaz faktdır.

Bununla belə, Xocalı soyqırımı Azərbaycan Dövləti, Heydər Əliyev Fondunun dəstəyi ilə bir çox ölkələr tərəfindən tanınıb. Cinayətkarlar Beynəlxalq Məhkəmədə cavab verməyənə qədər bu istiqamətdə işimizi davam etdirməliyik.

Azərbaycan Dövləti Ali Baş Komandanın rəhbərliyi ilə işğal altında olan ərazilərimizi, Xocalını erməni tapdağından azad etməklə öz sözünü dedi. Beynəlxalq hüququn ədalətə deyil, gücə buxovlandığı bir vaxtda Azərbaycan özü dünya, insanlar üçün "demokratiya, ədalət bazarı" açan bəzi böyük təşkilatlara layiqli dərsini verdi. Bu gün dünya ictimaiyyətinin Xocalı soyqırımını törədən terrorçu, separatçı dövlətə münasibətinə baxanda ikiüzlü standartından əl çəkmədiyi görünsə də, haqqın öz yerini tutacağına inanıram.

✍ *Tahirə Qafarlı*

# Bu avtomobillərin istifadəsindən imtina edilir

***Ötən ay avtomobil bazarında da qiymət dəyişiklikləri müşahidə olunub. Bu barədə hafta.az-a İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) məlumat verilib. Mərkəz tərəfindən aparılan monitorinqə əsasən, 30 min manatadək olan avtomobillərin qiyməti yanvar ayında 2.7 faiz yüksəlib.***

Aİ-95 markalı benzindən istifadə edən və daha bahalı avtomobillərə tələbin azalması müşahidə olunsa da həmin avtomobillərin qiymətində ay ərzində 0.5 faiz artım qeydə alınıb. Qeyd edək ki, bu ilin yanvar ayında Azərbaycan 113,4 milyon ABŞ dolları dəyərində 6 191 ədəd müxtəlif təyinatlı avtomobil idxal edib.

İlk ayda sürücü daxil olmaqla 10 nəfər və yaxud daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələrinin idxalı dəyişməyərək 20 ədəd (0,808 milyon ABŞ dolları dəyərində), əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələrinin idxalı isə 12,6 % azalaraq 5 643 ədəd (100,3 milyon ABŞ dolları dəyərində) təşkil edib. Bu avtomobillərin 1 235-i (40,2 milyon ABŞ dolları dəyərində) daxili yanma mühərriklə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən nəqliyyat vasitələri, 239-u (9,663 milyon ABŞ dolları dəyərində) isə yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələridir. Bu isə birincinin 32,4 %, ikincinin isə 2 dəfə artması deməkdir.

Bundan əlavə, yük daşımaq üçün mühərrikli nəqliyyat vasitələrinin idxalı 31,6 % artaraq 495 ədəd (8,908 milyon ABŞ dolları dəyərində), xüsusi təyinatlı motorlu nəqliyyat vasitələrinin idxalı isə 22,2 % artaraq 33 ədəd (3,450 milyon ABŞ dolları dəyərində) olub.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİIBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Gələcəyə baxış konsepsiyası

***Azərbaycan Prezidentinin inaqurasiya mərasimindəki çıxışı dünyaya mühüm mesajlar verməklə yanaşı, dövlətin cəmiyyət, xalq qarşısında, xalqın, cəmiyyətin dövlət qarşısında olan vəzifələrini bir daha xatırlatmış oldu. Milli Məclisin deputatı Elşad Mirbəşir "Həftə içi"nə müsahibəsində Prezident İlham Əliyevin andiçmə mərasimində proqram xarakterli çıxış etdiyini bildirdi. Qeyd etdi ki, dövlət başçısı ölkədə bütün sahələr üzrə mövcud vəziyyəti qiymətləndirdi və hər sahə üzrə görülməsi vacib olan işlərdən danışdı. O, hesab edir ki, aidiyyəti üzrə bütün sahələrin inkişafı ilə bağlı ölkə Prezidentinin səsləndirdiyi fikirlər hərəkətverici və yönləndirici element rolunda çıxış edəcəkdir.***

## Aktual

E.Mirbəşir qeyd edib ki, cənab Prezidentin səsləndirdiyi fikirlər bizim gələcəyə baxışımızdır: "Hələ Prezident seçkilərindən öncə cənab İlham Əliyev vurğulamışdı ki, növbədənkənar prezident seçkiləri həm də milli tariximizin yeni mərhələsinin başlanğıcıdır. Prezident seçkilərinin əhəmiyyətinə dəlalət edən məqamlardan biri də bundan ibarətdir. Azərbaycan tarixinin mühüm bir mərhələsi artıq geridə qaldı. Öncəki mərhələdə bizim milli hədəfimiz ərazi bütövlüyümüzün təmin olunmasından və digər istiqamətlərdə addımların atılmasından ibarət idi. Ölkə Prezidenti vurğuladı ki, biz əvvəlki mərhələdə qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. Həqiqətən də 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçiləndə İlham Əliyev xalqa bir sıra məqamlarla bağlı vədlər vermişdi. Xüsusi olaraq dövlətimizin ərazi bütövlüyünün təmin olunması istiqamətində çalışacağını və nəticələr əldə edəcəyini bildirmişdi. Bu ali məqsədə xalqımız, dövlətimiz cənab İlham Əliyevin rəhbərliyi, liderliyi altında uğurla çatdı. Eləcə də həyat fəaliyyətinin bütün istiqamətlərində olduqca səmərəli, uğurlu nəticələr ortaya qoydu. Tariximizin yeni mərhələsində xalqımız növbədənkənar seçkilər vasitəsilə ölkə rəhbərinə yaxından dəstək olduğunu nümayiş etdirdi, yeni mərhələnin başlanğıcını da İlham Əliyevə həvalə etdi. Beləliklə, bu mərhələdə qarşımıza qoyduğu hədəflərə cənab İlham Əliyevin rəhbərliyi altında uğurla çatacağımıza xalqımız öz inamını ifadə etmiş oldu.



Ölkə rəhbəri buna xüsusi diqqət çəkdi".

E.Mirbəşir prezidentin çıxışı kontestində qeyd edib ki, Azərbaycan xalqının həmrəyliyi, birliyi bizim bütün ali məqsədlərimizə çatmağımızı, milli ideyalarımızı həyata keçirməyimizi şərtləndirib. O, bəyan edib ki, hərəkətverici əsas qüvvəmiz də həmrəyliyimiz, milli birliyimizdir:

"Azərbaycan xalqı İlham Əliyevin ətrafında sıx birləşib. Bu, həm daxildə, həm də beynəlxalq müstəvidə bizim uğurlarımızın qarantı rolunda çıxış edir. Ölkə Prezidenti milli birliyin daha da möhkəm olması, ayrıca gənc nəslin mənəvi dəyərlərimizə, milli maraqlarımıza uyğun şəkildə tərbiyə olunmasının vacibliyini vurğuladı. Bu, həm də ölkə Prezidentinin gələcəkdə diqqət yetirəcəyi mühüm istiqamətlərdən biri haqqında təsəvvür yaratdı".

E.Mirbəşir qeyd edib ki, qlobal proseslərə təsir etmək üçün bütün mənalarda ciddi resurslara sahib olmaq lazımdır ki, Azərbaycanın bu resursları mövcuddur, Onun sözlərinə görə, Azərbaycan çox böyük nüfuza sahibdir və ölkə Prezidenti çıxışında bu məqamlara da işarə etdi:

"155 dövlətin dəstəyi ilə Azərbaycan BMT TŞ-nın qeyri-daimi üzvü seçildi. Azərbaycana Qoşulmama Hərəkatı çərçivəsində çox böyük dəstək mövcuddur, Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycanın mövqeyi təyinedici, müəyyənləşdirici təsirə malikdir. Eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycan yüksək nüfuza sahibdir. Ölkə Prezidenti bu məqamları qeyd etməklə bir daha xatırlatmış oldu ki, Azərbaycan kifayət qədər ciddi mövqelərə malikdir. Ayrıca o, COP29 konfransının Azərbaycanda keçirilməsinə beynəlxalq dəstəyin olmasına da diqqət çəkdi və bununla mühüm mesajlar ötürmüş oldu. O dedi ki, 20-30 ölkə beynəlxalq ictimaiyyət deyil, hər hansı bir ölkənin öz mövqeyini beynəlxlq ictimai mövqe kimi təqdim etməsi qəbuledilməzdir. Bununla bərabər Prezident vurğuladı ki, Azərbaycana dünya səviyyəsində kifayət qədər ciddi dəstək mövcuddur. Və sadalanan fikirləri xatırlatmaqla fikirlərini əsaslandırmış oldu".

> “
>
> *Azərbaycan çox böyük nüfuza sahibdir və ölkə Prezidenti çıxışında bu məqamlara da işarə etdi*

Deputat qeyd edib ki, ölkə Prezidentinin səsləndirdiyi mühüm məqamlardan birinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasının beynəlxalq proses kimi nəzərədən keçirilməsinin lazım olmadığını deməsidir. Onun fikrincə, bu ona işarə edir ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması Azərbaycan üçün həyati vacib məsələ deyil. Yəni biz öz ərazilərimizi işğaldan azad etmişik, ərazilərimiz boyunca suverenliyimizi etibarlı və dönməz şəkildə təmin etmişik. Ona görə də artıq sülh haqqında Ermənistan fikirləşməlidir. Yəni Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzərindən Azərbaycana qarşı manipulyativ davranışlar heç bir nəticə verməz. Azərbaycan indiki şərtlər daxilində və şəraitdə özünü çox rahat hiss edir. Ona görə də münasibətlərin normallaşdırılmasını Azərbaycan üçün ələhiddə bir məsələ kimi gündəmdə saxlanılmasının vacib olmadığını dedi: "Biz öz yolumuzla gedirik, regionda ümumi təhlükəsizliyin və sülhün təmin olunması istiqamətində addımlar atmaq gücündəyik. Beynəlxalq ortruşmuş obrazımız sülhsevər, əməkdaşlığı dəstəkləyən bir dövlətdir. Azərbaycanın əməkdaşlıq üçün cəlbediciliyi hər zaman artmaqdadır. Həqiqətən də İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin arealı genişlənib və bundan sonrakı mərhəldə də bu istək qalacaqdır".

E.Mirbəşir Prezidentin işğaldan azad olunmuş ərazilərlə bağlı ölkəmizin strategiyası ilə bağlı dediyi fikirlərə diqqət çəkib. O, bu ilin sonuna qədər 20 min nəfərin öz doğma yurd-yuvalarına köçürüləcəyini hədəfləyəcəyimizi vurğuladı. Bildirdi ki, orada böyük miqyasda keyfiyyətli işlərin həyata keçirildiyini deyən ölkə başçısı həmin ərazilərə səfər edən qərəzsiz insanların görülən işlərdən heyrətə gəldiyini qeyd edib: "Həmin ərazilərin təhlükəsizliyi ilə bağlı vurğuladı ki, 2020-ci ildən sonra da atdığımız addımların hansı nəticəyə gətirəcəyini öncədən dəqiqliklə bilirdik. Laçın-Xankəndi yolu ilə bağlı ölkəmizin sərgilədiyi mövqe, atdığı addımlar da dəqiq müəyyənləşdirilmiş xətt üzrə həyata keçirilirdi. Ölkə Prezidenti bununla bir daha vurğulamış oldu ki, o, qarşıya qoyulan istənilən məqsədə dəqiq konsepsiya ilə yanaşır və uğurlu nəticələrinə əmin olaraq bu və ya digər istiqamətdə addımlar atılır.

Ölkə Prezidenti, həm də ona işarə etdi ki, biz 2020-ci ildə ərazilərimiz üzərində suverenliyimizin təmin olunması üçün də müəyyən dəqiq strategiyaya uyğun kompleks addımlar həyata keçirdik. Burada müxtəlif komponentlərə söykənildi və bütün bunlar uğurlu nəticələrə gətirib çıxardı". E.Mirbəşir bildirib ki, bütün bunları Azərbaycan xalqı görür. Azərbaycan Prezidentinin parlament tribunasından andiçmə mərasimində səsləndirməsi beynəlxalq dairələrə bu mesajı verdi ki, Azərbaycana qarşı məkrli planlara zaman, digər resurslar ayırmasınlar, Azərbaycan bütün bunların qarşısını lap başlanğıcdan almaq gücündədir: "Ölkə Prezidenti geniş nitqlə çıxış etdi və ölkəmizdə həyat fəaliyyətlərinin bütün istiqamətlərini ifadə etdi. İnanırıq ki, müxtəlif istiqamətlərdə hədəfə yönəlik addımların atılması zamanı ölkə prezidentinin parlament tribunasından səsləndirdiyi fikirlərə, müəyyənləşdirdiyi yola istinad olunacaq".

✍ *Tahirə Qafarlı*

## Gündəm

***Prezident İlham Əliyev seçkilərdəki tarixi qələbəsindən sonra, ənənəyə sadiq qalaraq, ilk rəsmi səfərini Türkiyəyə etdi. Burada həmkarı Rəcəb Tayyib Ərdoğanla həm ikitərəfli, həm də çoxtərəfli görüşdən sonra iki qardaş ölkə arasındakı bağları daha da möhkəmləndirən mühüm anlaşmalar imzalandı. Yeni dövr Azərbaycanının xarici siyasət kursunda Türkiyə və türk dövlətləri ilə əlaqələri daha da dərinləşdirməsi, artıq ən mühüm istiqamətlərdən biri sayılır. "Həftə içi"nə müsahibəsində Milli Məclisin deputatı, professor Musa Qasımlı ilə bu məqamları bir daha götür-qoy etdik.***



**Musa Qasımlı,**
Milli Məclisin deputatı, professor

# Azərbaycan və Türkiyə müharibə istəmir

***- Prezident İlham Əliyev seçkilərdən sonra ilk rəsmi səfərini Türkiyə Cümhuriyyətinə etdi. Bu səfərin həm hər iki ölkə, həm də region üçün əhəmiyyəti barədə danışardıq...***

- Prezident seçildikdən sonra cənab İlham Əliyevin ilk rəsmi səfərini qardaş Türkiyə Cümhuriyyətinə etməsi bu dövlətin Azərbaycanın xarici siyasətində üstün yer tutduğunu göstərir. Dövlət başçıları seçildikdən sonra birinci səfərlərini hansı ölkəyə etmələrinin mənası var. Türkiyə bizim üçün qardaş ölkədir, ulu öndər Heydər Əliyevin dediyi kimi, biz "bir millət, iki dövlətik". Son vaxtlar Prezident İlham Əliyevin də söylədiyi kimi, biz "bir milət, iki dövlət"dən tək yumruğa çevrilmişik. Türkiyə tək regionun deyil, dünyanın güclü dövlətlərindən biri, "G20"nin üzvüdür. Türkiyə iqtisadi gücünə görə dünyada 18-ci yerdədir. Türk Ordusu gücünə görə dünyanın ən qabaqcıllarındandır. Həm Azərbaycan, həm də Türkiyə regionda sülh üçün çalışan dövlətlərdir. Azərbaycan-Türkiyə münasibətləri qətiyyən üçüncü dövlətə və ya dövlətlər qrupuna qarşı yönəlməyib. Hər iki ölkə region dövlətlərinin və xalqlarının dinc, yanaşı yaşamasına və əməkdaşlığına çalışır. Prezident İlham Əliyevin bu səfəri özünün mahiyyətinə görə ikitərəfli münasibətlər çərçivəsini aşır və verilən bəyanatlardan da aydın görünür ki, regionda sülhə, təhlükəsizliyə, qarşılıqlı əməkdaşlığa yönəlib. Azərbaycan, Türkiyə qətiyyən müharibə istəmir, regionun gələcəyini dinc əməkdaşlıqda, sülhdə görürlər.

***- Prezident İlham Əliyev və Prezident Ərdoğan arasında şəxsi dostluq və qardaşlıq münasibətlərinin səviyyəsi hər kəsə məlumdur. Bu münasibətlərin dövlətlərarası münasibətlərdəki rolu hansı dərəcədədir?***

- Ölkələr və xalqlar arasında münasibətlərdə dövlət rəhbərlərinin şəxsi münasibətinin özünəməxsus yeri olur. Bəzən dövlətlər arasında münasibətlər protokol çərçivəsini aşmır, amma ölkələr mehriban qonşular kimi yaşayırlar. Türkiyə və Azərbaycan arasında münasibətlərdə isə tamam fərqli mənzərədir. Ölkələrimiz arasında münasibətlərin dərin tarixi, mədəni etnik və coğafi kökləri var. Biz kökü bir olan, iki ayrı dövlətin vətəndaşlarıyıq. Bu münasibətlərimizi yaxşılaşdıran amillərdən biri Prezident İlham Əliyevin qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanla şəxsi dostluq, qardaşlıq münasibətləridir. Onların danışıqları, müzakirələri rəsmi diplomatik, protokol çərçivəsini aşır və tam səmimi olur. Bu isə bütün məsələləri xırdalığına qədər müzakirə etmək imkanı verir. Dövlət başçılarımızın şəxsi münasibətləri istər-istəməz türk dünyasına, türk dövlətləri təşkilatlarının fəaliyyətinə də təsir edir. Naxçıvan sazişindən başlayaraq qurulmuş Türk Dövlətləri Təşkilatı cənab Prezidentimizin söylədiyi kimi, beynəlxalq münasibətlərdə təsirli amilə çevriləcək. Bütün bunlar özbaşına olmur. Bu, Prezidentimizin Türkiyə və digər türk dövlətlərinin rəhbərləri ilə yaxşı şəxsi münasibətləri nəticəsində mümkün olub. Bu səfər və türk dünyası haqqında deyilən sözlər Türk Dövlətləri Təşkilatının yaxşı gələcəyinin olduğunu göstərir. Şuşada keçiriləcək Türk Dövlətləri Təşkilatına Şimali Kipr Türk Cümhuriyyəti Prezidentinin dəvət edilməsi də yeni reallıqdan xəbər verir. Türk Dövlətləri Təşkilatının yaranması və möhkəmlənməsi müstəqil dövlətləri olmayan türk xalqları və toplumlarında özünəinam yaradır.

***- Müttəfiq, strateji tərəfdaş, güclü iqtisadi, mədəni əlaqələrə malik olan "bir millət iki dövlət" bu gün Qərb, Avropa və digər qüvvələr tərəfindən necə qarşılanır?***

- Türk dövlətlərinin əməkdaşlığı bir sıra Qərb ölkələri tərəfindən heç də yaxşı qarşılanmır. Bu gün türk xalqları dünyanın ürəyi hesab edilən Avrasiyada - qədim dədə-baba torpaqlarında yaşayırlar. Dünyanın iri dövlətləri Avrasiya uğrunda mübarizə aparırlar. Bu ərazilərin hökmranı isə türk xalqlarıdır. Ona görə də bir çox qüvvələr türk dövlətləri arasında soyuqluq, nifaq yaratmağa çalışırlar. İstəyirlər ki, Türk Dövlətləri Təşkilatı zəif olsun. Bundan ötrü müxtəlif vasitələrdən istifadə edirlər. Onlar islamafobiyanı, türkafobiyanı gücləndirir, müxtəlif üsullarla -demokratiya, insan haqları, söz-mətbuat azadlığı adı altında təzyiqlərə keçirlər. Təzyiqin digər bir forması isə Cənubi Qafqazda sülhün qurulmasında anti-türk qüvvələrinin maraqlı olmamasıdır. Onlar hesab edirlər ki, Ermənistanla Azərbaycan arasında daim gərgin münasibətlər qalmalıdır.

Ona görə də sülhün imzalanmasına mane olur, Türkiyəni türk dünyasından qoparmağa çalışırlar. Bunların isə heç bir nəticəsi olmayacaq. 44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirləri zamanı edilən təzyiqlər heç bir nəticə vermədi və onların arzuları qursaqlarında qaldı.

***- Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsinin görünən əhəmiyyəti nədir?***

- 2021-cil iyunun 15-də - Milli Qurtuluş Günü Şuşada Azərbaycanla Türkiyə arasında Bəyannamənin imzalanması misilsiz tarixi əhəmiyyətli bir hadisədir. Biz tariximizdə ilk dəfə olaraq strateji sənəd imzaladıq, rəsmi olaraq müttəfiqlik münasibətlərinin əsasını qoyduq. Şuşa Bəyannaməsində iki dövlət arasında siyasi diplomatik, iqtisadi, hərbi təhlükəsizlik, informasiya, ictimai, mədəni, humanitar və bir sıra digər sahələrdə ortaq hərəkətetmənin beynəlxalq hüquqi əsasları möhkəmləndirildi. Şuşa Bəyannaməsi Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təminatına xidmət edir. Bəyanamədə 1921-ci ilin Qars müqaviləsinə istinad edilməsi bu dövlətlərin siyasətində tarixi varisliyin əsas götürüldüyünü göstərir və digər iddialara cavabdır. Şuşa Bəyannaməsindən sonra Azərbaycan və Türkiyənin müdafiə, təhlükəsizlik, xarici siyasət və digər sahələrdə institusional əsasda ortaq əməkdaşlığın həyata keçirilməsi münasibətlərin böyük perspektivinin olduğundan xəbər verir.

***- Türk dünyası ailəsinin qurulması üçün hansı addımlar atılır?***

- Prezident İlham Əliyev andiçmə mərasimində bildirdi ki, bizi başqa bir yerdə gözləmirlər, Türk Dövlətləri Təşkilatı bizim ailəmizdir. Bu fikirlərin dərin mənası var. Qardaş Türkiyə Cümhuriyyəti uzun illərdir Avropa İttifaqına üzv olmaq istəyir, amma icazə vermirlər, müxtəlif şərtlər irəli sürürülər. Həqiqət bundan ibarətdir ki, Türkiyə Avropa İttifaqına daxil olan əksər dövlətlərin gücü baxımdan irəlidədir. Soruşulur: nə üçün Türkiyəni bu ittifaqa qəbul etmirlər? Cavab aydındır: bəzi ölkələr güclü bir türk dövlətinin olmasında maraqlı deyillər. Türk dövlətləri isə böyük əraziyə, zəngin təbii sərvətlərə və dinamik inkişaf edən iqtisadiyyata malikdirlər. Dövlətin qüdrətini müəyyənləşdirən meyarlar Türk Dövlətləri Təşkilatında var. Ən başlıcası, türk dövlətlərində artan güc, əhali var. Ona görə də cənab Prezidentimiz andişmə mərasimində Azərbaycan Dövlətinin xarici siyasətinin üstün istiqaməti kimi, Türk Dövlətləri Təşkilatının gücləndiriləcəyini söylədi. Biz kökləri eyni olan xalqlarıq, tariximiz, mədəniyyətimiz, dilimiz, dinimiz birdir. Türk xalqları köklərinə qayıdanda və həmin köklər üzərində müasirləşəndə yenilməz olurlar. Ona görə də cənab Prezidentimizin müəyyənləşdirdiyi strategiya türk dövlətləri və dövlətləri olmayan türk xalqlarının maraqlarına tamamilə uyğundur.

***- İki ölkə arasında hərbi sahədə əməkdaşlığın daha da gücləndirilməsi, ordu quruculuğu istiqamətində görülən işlər və qarşıda duran əsas vəzifələrə çatmaq üçün hansı yoldayıq?***

- Andiçmə mərasimində cənab Prezidentimiz yeni mərhələdə ölkəmizin qarşısında dayanan ən vacib məsələ kimi, dövlətimizin müdafiə qüdrətinin artırılacağını söylədi. Bir ölkənin müdafiəsi zəifdirsə, onun təhlükəsizliyi etibarlı ola bilməz və inkişafında problemlər yaranar. Bu mənada Prezidentimizin Türkiyəyə səfər zamanı hərbi sənaye ilə maraqlanmasının müstəsana əhəmiyyəti var. Bu gün Azərbaycan və Türkiyə hərbi sənaye kompleksi sahəsində ortaq layihələri həyata keçirirlər və hərbi təhsil sistemində sıx əməkdaşıq var. Dövlət başçımızın dediyi kimi, lokal xarakterli antiterror tədbirləri göstərdi ki, Azərbaycanda Türkiyə Ordusunun modeli qurulub. Hərbi sənaye kompleksinin inkişafı Azərbaycanı xaricdən silah asılılığından xilas etməyə hədəflənib.

> *"Ölkələr və xalqlar arasında münasibətlərdə dövlət rəhbərlərinin şəxsi münasibətinin özünəməxsus yeri olur*
>
> *Prezident İlham Əliyev andiçmə mərasimində bildirdi ki, bizi başqa bir yerdə gözləmirlər, Türk Dövlətləri Təşkilatı bizim ailəmizdir*
>
> *Prezident İlham Əliyevin Türkiyəyə səfəri zamanı Türkiyə-Azərbaycan Universitetinin yaradılması haqqında sazişin imzalanması bizim tariximizdə bir ilkdir*

***- Azərbaycanın Türkiyədə dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılmasında qardaşlıq dəstəyi nəyi ifadə edir?***

- Qardaşlar dar gündə tanınar. Türkiyədə "Əsrin fəlakəti" olan zəlzələ baş verəndə Prezident İlham Əliyevin göstərişi ilə icazə alınmadan, xəbərdarlıq edilmədən Azərbaycan xilasediciləri zəlzələ bölgəsinə getdilər. Onlar yüzlərlə türk qardaşımızın həyatını xilas etdilər. Bununla paralel olaraq zəlzələ zonasında səhra xəstəxanaları quraşdırıldı, yardımlar aparıldı. Azərbaycan Dövləti qardaş Türkiyənin Kahramanmaraş bölgəsində bir şəhərcik tikməyə başladı və bu proses indi də davam edir. Həmin şəhərcikdə, ümumən, 1000-ə yaxın yaşayış evi, məktəb, xəstəxana, kitabxana, səhiyyə ocaqları tikilir. Bu işlər həm də o zaman görülür ki, Azərbaycan özü işğadan azad edilmiş ərazilərdə dirçəliş işlərini heç bir xarici maliyyə yardımı olmadan təkbaşına, öz hesabına həyata keçirir. Belə bir şəraitdə Türkiyəyə uzadılan kömək əli - əsl qardaşlıq yardımıdır. Bütün Azərbaycan xalqı zəlzələdə zərər görən qardaşlarına yardım etdi. Gəlinlər cehizlik yorğan-döşəklərini qardaşları üçün göndərdilər. Bu bir daha göstərdi ki, Türkiyənin sevinci sevincimiz, kədəri kədərimizdir. Ən ağır vaxtlarda Azərbaycan Türkiyənin yanındadır.

***- COP29-un Azərbaycanda keçirilməsinin hansı hədəfləri var?***

- COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi cənab Prezident İlham Əliyevin yüksək beynəlxalq nüfuzu, ona olan inam və etibarla bağlıdır. Bu toplantı, eyni zamanda, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük bir vasitə olacaq. Hesab edirəm, qonaqlar işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfərlər edəcək, tarix və mədəniyyət abidələrinə, ekologiyaya vurulan zərərləri öz gözləri ilə görəcəklər. Ermənistanın hansı cinayətlər törətməsi haqqında COP29 iştirakçısı olan ölkələrin nümayəndə heyətlərində aydın təsəvvür yaranacaq. Düşünürəm, COP29 Azərbaycanla bağlı bütün mübahisəli məsələlərə yekun vuracaq.

***- Orta Dəhliz layihəsi, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu nəqliyyat yük daşımalarında hansı əhəmiyyətə malikdir?***

- Rusiya-Ukrayna müharibəsi nəticəsində yaranmış geosiyasi şərait Şimal-Cənub, Şərq-Qərb və Orta Dəhlizin əhəmiyyətini artırır. Orta Dəhliz üçün Zəngəzur məsələsinin həlli zəruridir. Orta Dəhliz təkcə Azərbaycan üçün deyil, Ermənistanın özünə, Rusiyaya, Türkiyəyə də faydalıdır. Təbii ki, Azərbaycan qərb rayonları ilə Naxçıvan arasında əlaqənin yaradılmasında Ermənistanın şıltaqlığı ilə hərəkət edə bilməz. Ona görə də İrandan Naxçıvana keçərək gedən yolun inşasına başlanması ən düzgün strateji qərardır, alternativ yolun olmasıdır.

Bu isə Azərbaycanın manevr imkanlarını artırır, siyasi, diplomatik yerini möhkəmləndirir. Orta Dəhliz, eyni zamanda, yükdaşımalarda böyük əhəmiyyətə malikdir. Bu, Azərbaycandan keçən yüklərin Naxçıvan üzərindən Fars körfəzinə, oradan Hind okeanına getməsinə imkan yaradacaq, eyni zamanda, Naxçıvan-İqdır dəmir yolu işə düşəndən sonra yüklərin Türkiyə üzərindən Avropaya daşınmasında müstəsna əhəmiyyətli rol oynayacaq. Bütün bunlar Azərbaycanın dünya siyasətində rolunu artıracaq, Naxçıvanı beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevirəcək. Bu, Türkiyənin türk dünyası ilə quru əlaqəsini asan qurmasına imkan verəcək. Əlbəttə ki, bu yol Bakı-Tbilisi-Qars dəmir yolunun alternativi deyildir. Onların hər ikisinin paralel fəaliyyət göstərməsi Azərbaycan və Türkiyənin imkanlarını artıracaq.

***- Türkiyə-Azərbaycan Universitetinin yaradılması nə vəd edir?***

- Prezident İlham Əliyevin Türkiyəyə səfəri zamanı Türkiyə-Azərbaycan Universitetinin yaradılması haqqında sazişin imzalanması bizim tariximizdə bir ilkdir. Birinci dəfədir ki, Azərbaycan və Türkiyə ortaq universitet yaradır. Bu universitetin yaradılması təhsil və elm sahəsində əməkdaşlığımızda yeni keyfiyyət mərhələsi açacaq. Universitetdə Türkiyə və Azərbaycan alimləri, müəllimlərinin bir yerdə çalışması, ortaq dərslik, dərs vəsaiti, monoqrafiya və elmi məqalələrin yazılmasına gətirib çıxardacaq. Ortaq tədris proqramları tərtib ediləcək, gənclər universitetdə açılan müasir ixtisaslarda təhsil alacaq və yeni texnologiyalara yiyələnəcəklər. Yeni texnologiyaları tətbiq etməyən, ona sahib olmayan bir ölkə müasir şəraitdə rəqabətə tab gətirə bilməz. Ona görə də belə bir universitetin yaradılmasını tarixi hadisə kimi qiymətləndirmək lazımdır.

***- Türkiyədə Azərbaycan həqiqətlərinin sosial-ictimai, mədəni sferada mədəni aspektlər üzərindən təbliği üçün hansı işlərin görülməsinə ehtiyac var?***

- Azərbaycan həqiqətlərinin Türkiyədə yayılması üçün çoxlu vasitələr var və onlardan uğurla istifadə edilir. Fikrimcə, bu məsələyə kompleks baxılmalıdır. Elm və təhsil, mədəniyyət, humanitar, informasiya sahəsində geniş işlər görülə bilər. Ortaq televiziya proqramlarının yayımını genişləndirmək mümkündür. Bəzi Qeyri Hökumət Təşkilatları ənənəvi üsullardan əl çəkməlidirlər. Ortaq saytların yaradılması fayda verə bilər. İşlər elə aparıla bilər ki, gələcəyimiz olan gənclər bu prosesdə daha yaxından iştirak etsinlər.

*✍ Tahirə Qafarlı*

# Münhen gündəliyi



◂ əvvəli 1-ci səhifədə

R.Bayramov son görüşdə əldə olunan razılıqları ümumi mənada müsbət hesab edib. O, hər hansı yazılı sənəd ortaya qoyulmasa da, bundan əvvəl Avropa İttifaqının vasitəçiliyi ilə keçirilən görüşlərdə oxşar bəyanatların verildiyini qeyd edib:

"Oxşar olsa da, bu məqamların yendən təkrarlanması ümidvericidir. Bu tərəfsizlik, lazımi şərtlər qorunacağı halda, danışıqların Qərb platformasına qayıtmasının mümkünlüyünə bir işarədir. Bundan sonra biz Avropa İttifaqının vasitəçiliyi ilə də oxşar görüşlərə şahidlik edəcəyik. Eyni zamanda, əgər bütün görüşlər sülhün əldə edilməsi üçündürsə istənilən tərəf bir şeyi yadda saxlamalıdır: sülhü istəyən tərəf, sülh təklifi verən, təkliflərlə bağlı uzun müddət cavab gözləyən Azərbaycandır. Əgər hər hansı beynəlxalq qurum, beynəlxalq vasitəçi Cənubi Qafqazda sülh istəyirsə, təsir göstərməli olduqları ölkə Ermənistan olmalıdır. Ermənistan davamlı şəkildə sülh prosesindən yayınan tezislərlə çıxış edir, sülhü əngəlləyə biləcək mövqe sərgiləyir. O baxımdan beynəlxalq birliyin məhz Ermənistana təzyiq göstərməsi şərtdir".

Politoloq son görüşdə mühüm məqama diqqət çəkib: "Prezident İlham Əliyev indiyə qədər Azərbaycanın irəli sürdüyü təklifləri və şərtləri yenidən təkrarladı. Almaniyanın timsalında Şolsun bu məsələdə Azərbaycana qarşı mövqe tutmaması, müsbət irəliləyişin olması ilə bağlı mövqe sərgiləməsi onu göstərir ki, Avropa da Azərbaycana təzyiq göstərməklə nəyəsə nail olmayacağını anlayıb".

**■ "ABŞ anlayır ki, Azərbaycan Cənubi Qafqazın ən əhəmiyyətli ölkəsidir. Cırtdan Ermənistan üçün Türkiyə kimi strateji müttəfiq olan bir ölkəni itirmək ABŞ üçün yaxşı deyil.**

Ona görə də ABŞ-nin Azərbaycanla münasibəti, yanaşma tərzi dəyişməlidir. Əgər əməkdaşıq istənilirsə, bu, səmimi, qarşılıqlı maraqlar müstəvisində təmin olunmalıdır". Bunu hafta.az-a politoloq Natiq Miri deyib.

N.Miri bildirib ki, Amerika Birləşmiş Ştatları (ABŞ) qlobal güc olaraq hər zaman iqlim dəyişikliyi ilə bağlı olan bütün konfranslarda, tədbirlərdə maraqlı olmaqla yanaşı, iştirakçı, təşəbbüsçü olub. O, bu baxımdan COP29 kontekstində Azərbaycan-ABŞ əməkdaşlığını müsbət amil kimi dəyərləndirib. N. Miri bununla yanaşı hesab edir ki, bunu ABŞ-nin geosiyasi maraqları ilə qətiyyən qarışdırmaq olmaz: "Azərbaycan ABŞ-la münasibətlərin, əməkdaşlığın normal müstəvidə inkişaf etməsində maraqlıdır. ABŞ-nin ölkəmizə mövqeyi ədalətli, beynəlxalq hüququ çərçivəsində olmadıqca sərin münasibətlər davam edə bilər. ABŞ-nin Azərbaycandan istəkləri və yerinə yetiriləcək bəzi tələbləri var. Azərbaycan bunu özünün milli maraqlarına uyğun hesab etmir və bu da ABŞ-Azərbaycan münasibətlərinə kölgə düşürürdü. Bu gün bu kölgənin tamamilə aradan qaldırıldığını söyləmək mümkün deyil. ABŞ-nin Azərbaycanın ərazilərini 30 işğalda saxlayan bir dövlətə deyil, Azərbaycana qarşı bu cür davranışı anlaşılan deyil. Xüsusilə də ABŞ dövlət katibinin köməkçisi O'Brayenin Azərbaycana açıqlamaları Bakının səbir kasasını daşırdı, Azərbaycan-Ermənistan danışıqlarında vasitəçiliyinin üzərindən xətt çəkildi. Təbii ki, bitərəfliliyi pozan tərəf bu prosesdə vasitəçi ola bilməz. Eyni davranışla Fransa da özü-özünü oyundankənar vəziyyətə saldı. Təbii ki, münasibətlər beynəlxalq hüquqa söykənən ədalətli, qərəzsiz yanaşma, əməkdaşlıqla genişlənə bilər. ABŞ o dövlətdir ki, hər zaman özünün qərarlarının başqa dövətlər tərəfindən qəbul olunmasını istəyir.



ABŞ hegemon güc olaraq daim özünün qərarlarını ədalətli, normal hesab edir və bunu bütün dünyanın, bəşəriyyətin qəbul etməsini istəyir. Bu, tək Azərbaycanla deyil, qardaş Türkiyə ilə münasibətdə də belədir. ABŞ-Türkiyə münasibətləri uzun illərdir normal səviyyədə tənzimlənə bilmir. ABŞ Türkiyəni NATO-nun əlavəsi, vassal dövləti kimi görür.

Türkiyə isə o Türkiyə deyil. ABŞ oyunlarını pozan, özü də oyunçu olan güclü Türkiyənin varlığını qəbul etmədikcə, ABŞ-Türkiyə münasibətlərinə müsbət mənada yanaşmaq mümkün olmayacaq. Türkiyə dünya çapında özünə yer etmiş güclü bir dövlətdir. Azərbaycan da artıq müstəqil, güclü dövlətdir. ABŞ Azərbaycanla əməkdaşlıq etmək istəyirsə, bu məqamları nəzərə almalıdır".

*✍ Tahirə*

# Faunamızı necə xilas edək

## Layihə

***Son illər iqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi Yer kürəsində yaşayan canlıların sayına əhəmiyyətli dərəcədə təsir göstərib. Məsələn, müşahidələr göstərir ki, hazırda dünyada köçəri yaşayan vəhşi heyvan növlərinin 44 faizinin populyasiyası azalır və hər beş növdən biri yoxolma təhlükəsi altındadır. Bu narahatedici tendensiyaları köçəri yaşayan heyvanların vəziyyəti ilə bağlı ilk araşdırmanın nəticələri sübut edir. Yeri gəlmişkən, BMT-nin Ətraf Mühit Proqramı (UNEP) tərəfindən köçəri yaşayan vəhşi heyvan növlərinin qorunması haqqında Konvensiyanın tələblərinə uyğun olaraq xüsusi hesabat hazırlanıb.***



Planetimizin ekosisteminin qorunması üzrə tədbirlərin görülməsi zəruridir

Həmin nəşrdə vurgulanır ki, hazırda xüsusilə balıqlarla bağlı vəziyyət narahatlıq doğurur. Konvensiyanın siyahısına daxil edilmiş, demək olar ki, bütün balıq növləri (97 faiz) təhlükə altındadır. Bütün dünyada, o cümlədən siyahıya daxil olmayanlar, köçəri yaşayan heyvan növlərinin yoxolma riski artır. Köçəri yaşayan heyvanlar üçün vacib olaraq müəyyən olunmuş əsas biomüxtəliflik sahələrinin yarısı (51 faiz) qoruma statusuna malik deyil, nəzarət edilən ərazilərin 58 faizi isə insan fəaliyyətinin təsiri altındadır. Belə ki, bu canlılar həddindən artıq istismar və insan fəaliyyətinə görə yaşayış yerlərinin itirirlər. Dörd növdən üçü yaşayış mühitinin itirilməsi, deqradasiya və parçalanmadan, on növdən yeddisi həddindən artıq istismardan əziyyət çəkir. Bütün dünyada nəsli kəsilmək təhdidi olan və ya yoxolma təhlükəsi ilə üzləşən 399 köçəri yaşayan heyvan növü hazırda Konvensiya siyahısına daxil edilməyib.

"Bugünkü hesabat bizə açıq şəkildə göstərir ki, məsuliyyətsiz insan fəaliyyəti köçəri yaşayan heyvanlar növlərinin gələcəyini təhlükə altına qoyur. Əldə edilən nəticələr ətraf mühitdəki dəyişikliklərin miqyasını göstərir. UNEP rəhbərinin sözlərinə görə, bu məlumat planetimizin ekosistemlərinin qorunması üzrə tədbirlərin görülməsi üçün lazımdır. "Bu heyvanların bir çoxu üçün vəziyyəti nəzərə alaraq, ləng davrana bilmərik və hesabat müəlliflərinin tövsiyələrini həyata keçirmək üçün birlikdə çalışmalıyıq", - deyə Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen qeyd edib.

Hesabata görə, hər il milyardlarla heyvan ölkə sərhədlərini və qitələri keçərək, quru, okean və hava yolu ilə köç edir, onlardan bəziləri əlverişli mühit axtararaq minlərlə kilometrlik məsafəni qət edir. Təbii ki, köçəri yaşayan heyvan növləri dünya ekosistemlərinin qorunmasında mühüm rol oynayır - bitkiləri tozlandırır, əsas qida maddələrini daşıyır, zərərvericiləri ovlayır və karbonun toplanmasına kömək edir. Sözügedən sənəddə əsas diqqət beynəlxalq mühafizəyə ehtiyacı olan və müvafiq siyahıya daxil edilmiş 1189 heyvan növünə yetirilir. Eyni zamanda, tədqiqat müəllifləri bu siyahıya daxil olmayan üç mindən çox köçəri yaşayan heyvan növünün vəziyyətini əlavə olaraq təhlil ediblər.

Hesabatda xatırladılır ki, köçəri yaşayan vəhşi heyvan növlərinin qorunması haqqında Konvensiya (CMS və ya Bonn Konvensiyası olaraq da tanınan) quru və dəniz köçəri yaşayan heyvanları, eləcə də köçəri yaşayan quşları əhatə dairəsi boyunca qorumağı hədəfləyir. Bu, 1979-cu ildə BMT-nin Ətraf Mühit Proqramı çərçivəsində bağlanmış beynəlxalq müqavilədir. Konvensiyanın imzalanmasından bəri iştirakçıların sayı tədricən artır və indi Afrika, Mərkəzi və Cənubi Amerika, Asiya, Avropa və Okeaniyanın 133 ölkəsini ehtiva edir. Konvensiyada sadalanan növlər, əhatə dairələrinin hamısında və ya əksəriyyətində yoxolma təhlükəsi altındadır və ya qoruma statuslarını artırmaq üçün koordinasiyalı beynəlxalq fəaliyyətə ehtiyac duyurlar.

Araşdırmalara görə, son 30 ildə siyahıya alınmış 70 köçəri yaşayan heyvan növü, o cümlədən çöl qartalı, leşyeyən qartal və vəhşi dəvə yoxolma təhlükə ilə üzləşib. 14 növ, əksinə, onların qorunmasına dair tədbirlər sayəsində əvvəlkindən daha yaxşı vəziyyətdədir. Bunlara mavi və donqar balinalar, ağ quyruqlu qartal və qara qağayı daxildir. Köçəri yaşayan köpək balığı, skat və nərə balığı da daxil olmaqla Konvensiya siyahısına daxil olan demək olar ki, bütün balıq növlərinin populyasiyalarının 1970-cı illərdən bəri 90 faiz azaldığına görə yüksək yoxolma riski ilə üzləşməsi faktı ən böyük narahatlıq doğurur. Konvensiyanın siyahısına daxil edilməmiş 399 köçəri yaşayan heyvanlar növü də kökü kəsilmək təhlükəsi altındadır.

Qeyd edək ki, bu gün Azərbaycanda təbii müxtəlifliyin qorunması istiqamətində müvafiq addımlar atılır. Ölkəmizdə101 məməli, 365 quş, 52 sürünən (reptiliya), 10 suda-quruda yaşayan (amfibiya), 101 balıq, 25 minə qədər cücü, 1100-dən çox hörümçəkkimilər, 181 ilbiz, 360 xərçəngkimilər, 287 rotatori (dəniz qurdları), 400 litohelmint (bitki parazitləri), 1200 helmint (heyvan parazitləri), 1500-dən artıq sərbəst yaşayan, insanlarda və heyvanlarda parazitlik edən ibtidai (protozoa) heyvan növləri məlumdur. 101 növ məməli heyvandan 13-ü cücüyeyən, 28-I yarasa, 29-u gəmirici, 2-si dovşankimilər, 19-u yırtıcı, 9-u dırnaqlı, 1 növü isə kürəkayaqlıdır. Heyvan növlərinin respublika ərazisində yayılma arealı müxləlifdir. Bəzi heyvanlar çox məhdud (göl, çay, dağın bir hissəsi), digərləri isə geniş ərazilərdə yayılıb. Məsələn, sərçəkimilər dəstəsinə daxil olan quşlara respublikanın bütün ərazisində rast gəlmək olar. Parazit ibtidailər, qurdlar qidalandıqları orqanizmlərin - sahiblərinin (kənd təsərrüfatı heyvanları, ev quşları və s.) arealından asılı olaraq respublikanın bütün zonalarında qeyd edilir. Məməlilərdən ceyran düzənlik, yarımsəhra, kiçik təpəlikli dağətəyi ərazilərdə, Dağıstan turu Böyük Qafqaz dağlarının cənub və şimali-şərq yamaclarında (Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Quba, Qusar rayonları) və yüksək dağlıq ərazilərdə məşkunlaşıblar. Quşların bir çox növü mesələrdə, dağlıq və düzənlik ərazilərdə, digərləri su hövzələrində, zərərverici cücülər müxtəlif aqrosenozlarda, ölkə faunasına daxil olan başqa növlər tarixən uyğunlaşdıqları müxtəlif ekosistemlərdə yayılıblar.

Amma təəssüflə qeyd etməliyik ki, Azərbaycanda "Qırmız kitab"a düşən vəhşi heyvan və yabanı bitki növlərinin sayı ilbəil artır. Məsələn, ötən ilin mayında çapdan çıxan "Qırmızı kitab"ın üçüncü nəşrinə 241 fauna növü daxil edilib. Həmin rəqəm birinci nəşrdə 108, ikinci nəşrdə isə 223-ə bərabər idi. Sonuncu nəşrə 60 yeni fauna növü daxil edilib, 42 fauna növü çəhrayı siyahıya salınıb.

Çəhrayı siyahı o deməkdir ki, həmin növ yenə də dövlət tərəfindən qorunur və onu ovlamaq və ya qırmaq olmaz. Lakin görülən tədbirlər nəticəsində həmin növlərin sayında artım var. Görülən tədbirlərin nəticəsi olaraq hazırda respublikamızda iki növün reintroduksiyası uğurla aparılır və bir neçə növün də təbii areallarının bərpasına yeni başlanılıb. Belə ki, Azərbaycanın mərkəzi düzənlik və dağətəyi bölgələrində tarixən ceyranlar geniş yayılmışdı. XX əsrin əvvəlində motorlu texnika çıxandan sonra ovçular onları maşınlarla qovaraq ovlamağa başladılar. Tez bir zamanda az qala nəslini kəsməyə nail oldular. 1960-cı ildə zooloqlar tərəfindən aparılan sayılma prosesi bu növün ölkəmizdə cəmi 200 baş qaldığını göstərdi. Təcili atılan addımlar sayəsində Bəndovan yasaqlığı, Şirvan qoruğu yaradıldı və növ burada bərpa olmağa başladı. Lakin Azərbaycanın bir çox ərazilərində ceyranın tarixi arealı çərçivəsində bu növə hələ də rast gəlinmir. Məsələn, Ceyrançöl kimi böyük ərazidə ceyranın adı qalıb, özü isə yoxdur. Ona görə növün tarixi arealını bərpa etmək üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN), WWF və IDEA İctimai Birliyi tərəfindən uğurlu reintroduksiya layihəsi aparılır. Bu vaxta kimi 350 başa yaxın ceyran Şirvan Milli Parkından tutularaq respublikanın digər ərazilərinə köçürülüb. Yeni ərazilərdə ceyranlar artaraq dayanıqlı populyasiyalar əmələ gətirib.

ETSN, WWF və IDEA İB tərəfindən həyata keçirilən digər uğurlu layihə meşə kəllərinin (zubrların) reintroduksiya yolu ilə bərpasıdır. Həmin heyvanlar ərazimizdə çox qədim zamanlarda yaşayıblar. Sonuncu Qafqaz zubru təbiətdə 1827-ci ildə ovlanıb. 2018-ci ildən başlayaraq ölkəmizə 35 başa qədər zubr gətirilib. Onların təbii artımını da nəzərə alsaq artıq 50 baş heyvan layihə ərazisində yaşamaqdadır. Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisində volyer şəraitində yaşayan zubrların yarısı vəhşi təbiətə buraxılıb. Daha sonra Qafqaz nəcib maralı, köpgər, bezoar keçisi, Şərqi Qafqaz turu və s. növlərin də reintroduksiya yolu ilə tarixi arealının bərpası sahəsində işlərə başlanılıb.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

## XƏBƏRİNİZ OLSUN...



■ Rusiya beşinci nəsil qırıcı - "Kaan" ilə bağlı Türkiyəyə əməkdaşlıq təklif edib. Bu barədə Rusiyanın İstanbuldakı baş konsulu Andrey Buravov deyib. Onun sözlərinə görə, Moskva əməkdaşlığa hazırdır. Bundan əvvəl Ukrayna da "Kaan"la bağlı Türkiyəyə müraciət etmişdi.

■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin uşaq reabilitasiya müəssisələri tərəfindən bu ilin yanvar ayında 18 yaşadək əlilliyi olan 2 309 uşağa reabilitasiya xidmətləri göstərilib.

■ Qarabağda özünü buraxmış separatçıların keçmiş "prezidenti" Samvel Şahramanyanın mühafizəçisi Aşot Danielyan saxlanılıb. Fevralın 20-də hüquq-mühafizə orqanlarının əməkdaşları Danielyanı İrəvanın Abovyan küçəsindən narkotik maddə saxlamaq və satmaqda şübhəli bilərək polis bölməsinə gətiriblər. İstintaq Komitəsinə onunla bağlı protokol təqdim edilib.



■ "Gələn ay Ağdam şəhərində daha bir yaşayış məhəlləsinin inşasına başlanılması nəzərdə tutulub". Bunu Prezidentin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev bildirib. "Hazırda Ağdamda 3 kəndin inşası da gedir. Bunlar Sarıcalı, Xıdırlı və Kəngərli kəndləridir".

■ Bakıda məktəbin ərazisində yanğın baş verib. Yanğın Xətai rayonu, Qaçaq Nəbi küçəsində yerləşən 17 saylı tam orta məktəbin ərazisində qeydə alınıb. Bildirilib ki, Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən 17 saylı orta məktəbin həyətində yığılmış tullantılarda baş vemiş yanğın FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin yanğınsöndürənləri tərəfindən qısa müddətdə söndürülüb.

■ Hindistanda fermer və kəndli həmkarlar ittifaqları mərkəzi hökumət rəsmiləri ilə danışıqların razılığa gəlməməsindən sonra Nyu-Delhidə etiraz yürüşünü bərpa edəcəklərini açıqlayıb. Məlumata görə, fermerlər polis hasarlarını dağıtmaq üçün istifadə edəcəkləri 1,2 min traktor, həmçinin buldozerlərlə paytaxta yürüş etməyə hazırdırlar.




■ "İlk oyunun hesabı bizi aldatmamalıdır". Bunu "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Portuqaliyanın "Braqa" klubuna qarşı keçiriləcək UEFA Avropa Liqasının pley-off mərhələsinin cavab oyunu ərəfəsində mətbuat konfransında deyib. 52 yaşlı mütəxəssis ilk görüşdə səfərdə 4:2 hesablı qələbə qazanmalarına baxmayaraq, ehtiyatı əldən verməyəcəklərini bildirib.

■ Əfqanıstanın şimalında yerləşən Samanqan əyalətində baş verən yolnəqliyyat hadisəsi nəticəsində yeddi nəfər ölüb, iki nəfər isə yaralanıb.

Ölənlərdən ikisi qadın, biri uşaqdır. Yaralananların vəziyyətinin ağır olduğu bildirilir.

# Hansı şagirdlər məktəblərini dəyişə bilməzlər?

***Fevralın 20-si saat 11:00-dan etibarən 2023-2024-cü tədris ilinin II yarımili üzrə şagirdlərin yerdəyişməsi prosesinə başlanılıb. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən verilən məlumata görə, XI siniflər üzrə şagirdlərin yerdəyişməsi aparılmayacaq. Həmçinin ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarına az müddət qaldığını nəzərə alaraq IX siniflər üzrə yerdəyişmə prosesi martın 1-dən tədris ilinin sonunadək aktiv edilməyəcək. Şagirdlərin yerdəyişməsi prosesi www.sy.edu.az portalı vasitəsilə elektron formada həyata keçirilir.***



■ **Mövzu ilə bağlı təhsil eksperti Nadir İsrafilov bildirib ki, bu sahənin elektronlaşdırılmasının müsbət tərəfləri var: "Ümumiyyyətlə, bu gün nəinki orta, ali məktəbdə, hətta magistratura səviyyəsində də bir ixtisasdan başqa ixtisasa yerdəyişmələr həyata keçirilir. Bu, bizim təhsildə demokratikliyin, humanistliyin bir sahəsidir.** Ancaq yerdəyişmələrlə bağlı müəyyən məhdudiyyətlər var. Bu məsələ həmişə diqqət mərkəzində olub. Hətta bir vaxtlar əksər Bakı məktəbləri şagirdlərini qaçqın və köçkün məktəblərinə keçirirdilər. Yüzlərlə belə faktlar var idi. Araşdırma, təhlillər aparıldı. Məlum oldu ki, qaçqın və məcburi köçkün məktəbinə o qədər də ciddi nəzarət yoxdur. Ona görə də əksər valideynlər bundan suiistifadə edirdilər. Bu, nəyə xidmət edirdi? Uşağın adını məktəbə yazdırsın, uşaq məktəbə getməsin, repetitor yanına getsin. Ondan sonra bu məram üzə çıxdı, aydınlaşdı. O dövrün təhsil naziri tərəfindən xüsusi əmr verildi. Bakı məktəblilərinin qaçqın, məcburi köçkün məktəblərinə köçürülməsi qadağan edildi. Hazırda da köçürmə halları var. Bu köçürmə hallarının qarşısını ala bilmərik. Çünki kimsə ərazisini dəyişir və s. Bu da zəruri məsələdir. Ona görə də hər hansı şagird köçürülməsinə ciddi yanaşılmalıdır".

■ **Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov qeyd edib ki, bu gün ölkənin 4 432 ümumtəhsil məktəbində 1,6 milyon şagird təhsil alır: "Hər il 10 mindən çox şagird müxtəlif səbəblərdən oxuduğu məktəbi dəyişir.** Yaşayış yerinin və ya valideynin iş yerini dəyişməsi, şagirdin məktəb daxilində narahatlıq yaşaması səbəbindən yerdəyişmə edilə bilər. Son üç ildə proses tamamilə şəffaf həyata keçirilir. Valideynlər müvafiq portala daxil olub kabinet yaradırlar, istədikləri məktəbdə boş yer varsa, sorğu yerləşdirirlər". O vurğulayıb ki, əvvəllər bu prosesdə kənar müdaxilələr müşahidə edilirdi: "Direktor, direktor müavininin razılığı ilə baş tuturdu məsələ. İndi isə valideyn belə hallarla qarşılaşmır. Bu gün Azərbaycan məktəblisi yaşayış yerini dəyişəndə rahatlıqla məktəbini də elektron yolla dəyişə bilir. Bu proses 9 və 11-ci siniflərə şamil edilmir. Onlar buraxılış imtahanlarına görə yerdəyişmə edə bilməzlər".

*"Bu, bizim təhsildə demokratikliyin, humanistliyin bir sahəsidir*

*Hər il 10 mindən çox şagird müxtəlif səbəblərdən oxuduğu məktəbi dəyişir*

✍ ***Sevinc***

***Tanınmış Qarabağ qazisi, sabiq könüllü tabor komandiri Azay Kərimovla hafta.az üçün budəfəki söhbətimizdə Azərbaycan Ordusunun 2023-cü il sentyabrın19-20-də cəmi birsutkalıq lokal əməliyyatından sonra azad edilmiş Xocalı, Qaradağlı, Malıbəyli  və s. kimi 1990-cı illərdə qətliamlar yaşanmış yurdlarımızın azaqlığından sonra yaşanan əhval-ruhiyyədən, Qarabağa ermənilərin geridönmə ehtimalından, Ermənistanla sərhəddəki son silahlı toqquşmalardan danışdıq.***

## Müsahib

# Şuşada həlak olmuş 147 şəhidimizin yerini bilirəm

***- Bu günlərdə 2023-cü ilin fevralın 12-də, yəni doğma Malıbəyli kəndinin işğal günündə vaxtilə dərc olunmuş " Əlacsızlıq... Həyatda ən qorxduğum şey budur..." başlıqlı bir kövrək yazınız rastıma çıxdı..Yazırsınız ki, "Fevral ayı mənim üçün cəhənnəm ayıdır. Bu gün Malıbəylinin işğal günüdur, həmin ayın 17-si Qaradaglı kəndinin işğalı (170 nəfər itki), 26-sı Xocalının işğalı (700 nəfər itki), bunun da üstünə gəldi Türkiyədəki zəlzələ...". Amma artıq yəqin, fevral sizin üçün də yavaş-yavaş cənnətləşir?  Xocalı da, Qaradağlı da, doğma Malıbəyliniz də azad edilib.***

- O günlər rəhmətlik həyat yoldaşım da əlacsız xəstəliklə mübarizə aparırdı. Malıbəyli də, Qaradağlı da, Xocalı da, həmçinin keçmiş Dağlıq Qarabağın xeyli hissəsi də hələ faktiki olaraq separatçı-terrorçu erməni rejiminin nəzarətində olduğundan, doğrudan da çox əlacsız duruma düşmüşdüm. 1992-ci ilin fevralında doğma Malıbəylinin mühasirədə qaldığı günlərdəki əlacsız durumumuzu xatırlayıb, daha da bədbinləşirdim...

Bəli, bu gün şükür Allaha, Ordumuzun igid oğulları özümün də bir döyüşçü zabit kimi bilavasitə iştirakımla Malıbəylini düşmən işğalından tam azad etdi.

Bu barədə sizinlə də ötən söhbətimizdə ətraflı danışmışıq. Düşmənlərimizin bizə 1988-1994-cü illərdə vurduğu yaralar qaysaq bağlasa da, tam sağalan deyil. O da taleyin qəribə bir zarafatıdır-nəyidir, bilmirəm, mənim özüm də, əkiz oğlum, qızım da məhz fevralın 12-də, yəni Malıbəylinin rus-erməni birləşmələri tərəfindən işğal edildiyi gündə anadan olmuşuq. Odur ki, hər doğum günüm gələndə, sanki eyni ağrıları təkrar yaşayıram, eyni əzab-əziyyəti təkrar çəkirəm.

...Doğum günümü 32 ildir qeyd etmirəm. Fəqət, builki doğum günümdə elə bilirdim, artıq unudulmuşam, amma "Facebook" səhifəmdə məni 300-dən çox soydaşım, dostum təbrik edəndən sonra bu xalqın, Vətənin uğrunda çəkdiyim zəhmətlərə görə qürur duydum. Məni həm doğum günüm, həm də Malıbəylinin azadlığı münasibətilə təbrik edənlərin hamısına təşəkkür edirəm...

O da var ki, 2023-cü ilin fevralın 12-dək Bakının Ramanı qəsəbəsində yanaşı yaşadığımız malıbəylili qohum və qonşularımızın evlərindən ağlaşma səsi gəlir, hansısa şəhidin ruhu xatirinə halvalar çalınıb paylanırdı. Yəni bu 32 ildə heç kəs nə Malıbəylini, nə də onun uğrunda şəhid olan oğulları unutmadı. Allaha bir daha şükürlər olsun, bu dəfə 2024-cü ilin fevralın 12-də həmin ağlaşma səslərini eşitmədik.

Mən 1992-ci ildən Şuşa, Malıbəyli, Xocalı azad edilənədək doğma torpaq, yurd yanğısını, düşmənə qarşı qisas, intiqam hissini unuda, bəzi başqaları kimi hamıya qarışıb ürəkdən şənlənib öz həyatımı yaşaya bilmədim.

Bu gün Dövlətimizin, Ordumuzun, Xalqımızın, şəhid və qazilərimizin sayəsində Malıbəyli kimi, Quşçular da, Qaradağlı da, Xocalı da və s. azad edilib. Məni bir döyüşçü zabit, qazi kimi narahat edən bəzi məsələlər var. Məsələn, Malıbəyli mühasirədən çıxan zaman dinc əhali, demək olar ki, heç bir fiziki zərər görməsə də, bizim könüllü batalyon 18 şəhid verib. Ermənilər onların meyitlərini götürməyimizə imkan vermədiyindən heç biri dəfn olunmayıb.  Heç biri... Hamısı döyüş meydanında, səngərdə qalıb.

2023-cü ilin sentyabrından, yəni Malıbəyli və ətraf ərazilər işğaldan azad ediləndən bəri müvafiq qurumlara dəfələrlə müraciət etsəm də, həmin şəhidlərimizin cəsədlərinin axtarılıb-tapılması üçün heç bir konkret tədbir görülməyib. Həmkəndlilərim də laqeydlik göstərirlər. Malıbəyli azad edildikdən sonra gedirlər kənd məscidinin xarabalığının, bulağının yanında şəkil, video çəkdirirlər, müsahibələr verirlər, amma heç biri xatırlatmır ki, bu kəndin şəhidlərinin cəsədləri aşkar edilməyib. Şəhidlərimizin haralarda həlak olduğunu da çoxları bilmir, ancaq mən bilirəm.  Həmin 18 şəhidimizin  adını bir-bir bilirəm - hansı harada şəhid olub. Sadəcə, onların axtarıb-tapılması üçün müvafiq qurumlar göstəriş verməlidir. Mən də daim bu işdə də bələdçilik etməyə hazıram.  Yeri gəlmişkən, 1992-ci ilin mayında Şuşanın işğalı zamanı həlak olmuş 147 şəhidimizin də cəsədləri tapılmayıb... Onların da yerini bilirəm. Şuşanın aşağı hissəsində bir əhəng quyusu vardı; ermənilər şəhidlərimizin cəsədlərini həmin quyuya doldurub üstünü də torpaqlayıblar. Həmin yerdə qazıntı aparıb həmin şəhidlərin qalıqlarını tapmaq  çətin deyil.



**Azay Kərimov,**
Qarabağ qazisi, sabiq könüllü tabor komandiri

Üç ildən çoxdur Şuşa azad olunub, amma mən getmirəm oraya... Nəyə görə? Ona görə ki, həmin cəsədlər müsəlman qaydası ilə torpağa tapşırılmamışdır və mənimlə bərabər döyüşüb, canını fəda etmiş şəhidlərin ruhundan çəkinirəm, utanıram. Gedim çıxım Qalanın yanına, Cıdır düzünə, onlara nə deyim, nə cavab verim? Deyim ki, xoş gəlmişəm? Siz şəhidə layiq olmayan bir şəkildə torpağın altındasınız, itirib-axtaran, yerinizi bilən yoxdur - mən də gəlmişəm burada təbiəti, gözəl mənzərələri sey edib feyziyab olmağa?..

> *"Rusiyanın "sülhməramlı" adlanan qoşunları vaxtları çatanda oradan çıxacaqlar*

Bundan əlavə, Şuşanın Turşsu qəsəbəsindən olan 7  igid oğlan Böyük Kirsdə şəhid olub. Turşsu sakinlərindən biri maraqlanmır ki, hökumətdən icazə alaq, gedək axtaraq o dağları, bəlkə tapdıq... Bax, mənim bir döyüşçü, bir qazi kimi belə narazılıqlarım, narahatlıqlarım  var...

***- Bir qazi, döyüşçü zabit kimi necə düşünürsünüz? Tam ürəklə deyə bilərikmi ki, Xocalının, Qaradağlının, Malıbəylinin... qisası alınıb?***

- Öncə qeyd etdiyiniz kimi, bir daha Allaha min şükürlər olsun ki, böyük soyqırımı, qətliamların baş verdiyi Meşəli, Malıbəyli, Qaradağlı, Ağdaban və s. kimi Xocalı da düşməndən azad edilib. Təəssüf ki, həmin qırğınları təşkil etmiş, icra etmiş Vaqif Xaçaturyan kimi bir neçə terrorçu həbs edilib məhkəmə qarşısında cavab verərək zindana atılsa da, Araik Arutyunyan, Bako Saakyan, Arkadi Qukasyan kimi keçmiş separatçıbaşıları, Ruben Vardanyan kimi milyarder tutulub Bakıya gətirilsə də, əsas təşkilatçı və icraçılar qaçıb canlarını qurtara biliblər. Məsələn, Xocalı, Malıbəyli, Qaradağlı qətliamları dövründə Qarabağda əsas komandirlərdən, bilavasitə işğal, soyqırımı planlarının icraçılarından olan və hazırda general rütbələri daşıyan Vitali Balasanyan və Samvel Babayan... Ordumuzun 19-20 sentyabr lokal əməliyyatları bitdikdən və Xankəndidəki erməni liderlər arasında qaçhaqaç başladıqdan sonra, Dövlət Təhlükəsizlik Xidmətinə müraciət etdim ki, mən 1990-cı illərdə Qarabağda Azərbaycana qarşı vuruşmuş əsas komandirlərin hamısını üzdən yaxşı tanıyıram. Mənə icazə verin, şərait yaradın, gedim Laçındakı sərhəd-keçid məntəqəsində durum və Ermənistana keçən erməniləri bir-bir müşahidə edim. Axı orada dayanan əksəriyyəti cavan sərhədçilərimiz, polislərimiz həmin erməni komandirləri mənim qədər tanıya bilməz. Mən bilirdim ki, Vitali Balasanyan, Samvel Babayan kimilər qaçacaqlar. Onlar həm hiyləgərdirlər, maskalanmağı, saxta sənəd düzəltdirməyi yaxşı bacarırlar, bundan əlavə, həm də sərhəddən keçən bütün gizli yol-cığırlara yaxşı bələddirlər. Sözsüz ki, onlar əvvəlcədən Qarabağdan qaçmaq üçün lazımi hazırlıqlar görmüşdülər. Son nəticədə Balasanyan da, Babayan da aradan çıxa bildilər. Hər ikisi erməni mediasına müsahibə verir ki, gəldik güləgülə Azərbaycan sərhədçilərinə salam verdik, keçdik...

Hələ mən demirəm ki, Serjik Sərkisyan, Robert Köçəryan kimi 1988-ci ildən bəri Qarabağda separatizmi qızışdıran, həm siyasi, həm hərbi proseslərə rəhbərlik edən caniləri Ermənistandan tutub Bakıya gətirməyə nail olmalıyıq. Bax, bütün bunlara görə, mənim qəlbim soyumur ki, Xocalının, Malıbəylinin, Qaradağlının qısası tam alınıb...

***- Rusiyasülhməramlıları hələ də Qarabağda, Xocalı hava limanı ərazisindədirlər...***

- Rusiyanın "sülhməramlı" adlanan qoşunları vaxtları çatanda oradan çıxacaqlar. Sadəcə, həmin vaxtadək, yəni 2025-ci ili gözləmək lazımdır... İnanmıram ki, onlar ondan sonra burada qalsınlar. Bir də ki, qalsalar, Qarabağda nə iş görəcəklər - erməni də qalmayıb Qarabağda. Bütün hallarda mən siyasətçi olmadığımdan, bu haqda uyğun fikir söyləyə bilmərəm...

***- Son bəyanatlardan da bəllidir: Rusiya çalışır ermənilərin, ən azı, bir qismi Qarabağa qaytarılsın və "sülhməramlı"ların orada daha uzun müddət qalmalarına bəhanə yaransın...***

- Qarabağdan Ermənistan dediyi kimi, 120 min yox, 70 mindən çox erməni köçüb gedib. Bunların çoxu Azərbaycan vətəndaşlığının qəbul edilməsi şərtləri ilə razılaşmayıb könüllü gedib. Gözləri arxada qalıb - yəni azı, 30 il yaşadıqları evlər, bağ-bağçalar üçün yanırlar. Ona görə də necə ki, bizlər 30 ildən çox heç zaman öz doğma yurdlarımızı, evlərimizi unutmadıq, daim o ocaqlarımıza qayıtmaq üçün əlimizdən nə gəlirsə, etməyə çalışdıq, ermənilər də bütün vasitələrlə əvvəlki şəraiti bərpa edib geri qayıtmağa çalışacaqlar.

1988-ci ildə Qərbi Azərbaycandan soydaşlarımızı qovan kimi ermənilər onların evlərini ya  yandırdılar, ya da  özləri yığışıb yaşamağa başladılar. Gərək biz də Xankəndidəki, Ağdərədəki, Əsgərandakı evlərə mümkün qədər tez azərbaycanlıları yerləşdirək ki, ermənilər onlardan soyusun, əllərini üzsünlər...

***- Qarabağdakı ermənilərin etnopsixoloji xarakterinə bələd biri kimi, necə hesab edirsiniz: son 30-35 ildə bütün bu baş verənlərdən sonra onlar təkrar Azərbaycan ərazisinə qayıdıb yaşamağa cəhd edə bilərlər?***

- Bir yandan inanmıram ki, onlar Azərbaycana qarşı bütün bu törətdikləri vəhşiliklərdən, faciələrdən sonra bir daha Qarabağa qayıdıb yaşamağa cürət etsinlər. Sadəcə, bir hərbçi kimi açıq deyirəm: elə bir təbliğat aparmaq lazımdır ki, ermənilər Azərbaycan torpaqlarına bir də ayaq basmağı heç ağıllarına da gətirməsinlər...

***- Bəzən belə fikirlər səslənir ki, ermənilərin Qarabağa geri qayıtması Azərbaycanın xeyrinədir...***

- Bunun Azərbaycana gələcəkdə növbəti təhlükə yaratmaqdan savayı heç bir xeyiri ola bilməz. Xeyiri o zaman ola bilər ki, Qərbi Azərbaycandan qovulmuş 300 minə yaxın soydaşımız da qayıdıb öz tarixi yurdlarında yaşasınlar...

***- Ermənistanla sərhəddə terrorçu "Yerkrapa" üzvlərinin açdığı atəş nətisəcində baş vermiş sonuncu qarşıdurma haqqında nə düşünürsünüz?***

- Bu insident məni çox narahat etdi. Düzdür, şükür Allaha, Azərbaycan tərəfdən itki olmadı, yalnız bir sərhədçi oğlumuz yaralandı - Allaha şəfasını versin. Onun da qisasını Ordumuz beşqat aldı. Biz sakit, arxayın olmamalıyıq. Ermənistanla aramızdakı belə gərginliklər yaxın 4-5 ilədək səngiməyəcək. Odur ki, bütün gücümüzlə sərhədlərimizi möhkəmləndirməli, arxadakı hərbi bazalarımızı gücləndirməliyik. Bir qarış torpaq da nəzarətsiz qalmamalıdır.

**Sultan Laçın**

## Maliyyə

# Bank sektorumuz niyə zəif inkişaf edir?

***"Fitch Ratings" Beynəlxalq Agentliyi Azərbaycanın bank sektorunun mövcud vəziyyətini açıqlayıb. Sözügedən qurumun rəyində bildirilir ki, Azərbaycanın bank sektorundakı vəziyyət yaxşılaşsa da, lakin bu sektor kifayət qədər zəif olaraq qalır. "Fitch" qeyd edib ki, Azərbaycanın bank sektorunda vaxtıkeçmiş borc əmsalı 2023-cü ildə rekord - minimum səviyyəyə enərək, ümumi kredit portfelinin 1,8 faizini (2022-ci ilin sonunda 2,9 faiz) təşkil edib, buna isə kreditləşmənin güclü artımı, kreditlərin qaytarılması və silinməsi dəstəkləyib.***

"Azərbaycan banklarının kapitallaşması azalıb, lakin adekvatlıq əmsalına uyğun səviyyədə qalır: sektorun birincidərəcəli kapitalın adekvatlıq əmsalı 2023-cü ilidə 13,5 faiz (2022-ci ilin sonunda 15,2 faiz) təşkil edib. Depozit bazasında cari hesabların üstünlük təşkil etməsi səbəbindən aktivlərin yüksək gəlirliliyi və orta maliyyələşdirmə dəyəri ilə dəstəklənən sektorun mənfəətliyi güclü olaraq qalıb", - "Fitch" qeyd edib.

Agentlik, həmçinin əlavə edib ki, depozitlərin dollarlaşması 2023-cü ildə 40 faizdən aşağı düşərək, 35 faizlik tarixi orta səviyyəyə yaxınlaşıb, 2023-cü ilin sonunda xarici valyutada olan kreditlər ümumi portfelin 19 faizinə (2022-ci ilin sonunda 20 faiz) düşüb. Bəs görəsən, agentlik niyə bank sektorumuzun zəif olduğunu düşünür? Bank sektorumuzu beynəlxalq səviyyəyə çatdırdırmaq üçün hansı addımlar atılmalıdır?




■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimli qəzetimizə açıqlamasında bildirib ki, bank sektorumuz ümumi şəkildə zəifdir: "Son illərdə Azərbaycanda bank sektorunun güclənməsinin səbəblərindən biri 2015-ci ildən sonra maliyyə stabilliyinin yaradılması və manatın məzənnəsinin dollara nisbətdə sabit saxlanması ilə əlaqədardır.** Bu dövrdə iqtisadiyyatın inkişaf etməsi, əhalinin gəlirlərinin artması bank sektorunun da güclənməsinə gətirib çıxarıb. Amma ümumi şəkildə yanaşsaq, bəli, bank sektorumuz hələ zəifdir. Təbii ki, bank sisteminin zəif olmasının bir sıra səbəbləri var. Əsas səbəblər idarəetmə, rəqabət və  iqtisadiyyatın strukturu ilə bağlıdır. Digər səbəb odur ki, Azərbaycanda bank sektorunda xaricikapitallı bankların iştirak səviyyəsi aşağıdır. Azərbaycan bazarında xaricikapitallı bank çox azdır və nüfuzlu banklar aktiv deyil. Bu da rəqabətin aşağı səviyyədə olmasına gətirib çıxarır. Rəqabət zəif olanda banklar da güclü ola bilmir".

İqtisadçı bildirir ki, bank sektorunda rəqabət səviyyəsini aşağı salan əsas faktor Azərbaycanda bankların bir çoxunun ya dövlət bankı olması, ya da məmur biznesinə bağlılığıdır: "Kapital bazarında inkişafın aşağı səviyyədə olması da bankların inkişafına məhdudiyyətlər qoyur. Ümumiləşdirmə aparsaq, bazar məhduddur və bölünüb. Bu da bankların rəqabət aparmasına imkan vermir".

Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatının strukturu da bank sektorunun güclənməsinə təsir göstərir: "Bank sektorunun inkişafı həm də Azərbaycan iqtisadiyyatı ilə bağlı məsələdir. Azərbaycan iqtisadiyyatının özü zəif olduğuna görə bank sektoru da zəifdir. Çox eşitmisiniz ki, Azərbaycan iqtisadiyyatı güclüdür, bu qədər ehtiyatımız var və s. Onların hamısı neft, qaz satışı ilə əlaqədar məsələdir. Yəni bu da dövlətin əlində formalaşmış resurslardır. Qeyri-neft sektoru zəif inkişaf etməsi, qeyri-neft ixracının zəif inkişaf etməsi bank sektorunun  güclü olmamasına gətirib çıxarır. Əslində maliyyə sektoru real iqtisadiyyatın əks təsiridir. Real iqtisadiyyat güclü olmayandan sonra maliyyə sektorunun güclü olmasından, ümumiyyətlə, danışmaq mümkün deyil. Bu baxımdan Azərbaycanda banklar ciddi şoklara hazır deyillər, ciddi rezervləri, ehtiyatları yoxdur. Bütün məsələlər bununla əlaqədardır. Bu da ona gətirib çıxarır ki, bank sektorunda həddən artıq asılılıq var, kövrəklik var, zəiflik var. Bank sektoru ölkədə qeyri-neft sektorunun zəif inkişaf etməsi səbəbindən zəif olaraq qalır".

■ **Məsələyə münasibət bildirən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov da deyib ki, Azərbaycanın bank sektoru iqtisadiyyatımız kimi, əsasən, neft gəlirlərindən asılıdır: "Azərbaycanda iqtisadiyyatın digər sahələri kifayət qədər inkişaf etməyib.** Bizdə hansı sahəyə baxırsan əsas oyunçular, yəni sahibkarlar dövlət sektoruna bağlıdırlar. Dövlətin də əsas gəliri neftdəndir. Bu o deməkdir ki, bank sektorunda qeyri-sabitlikdir. Bu da bank sistemi üçün təhlükədir. 2015-ci ildə neftin qiyməti kəskin düşəndə, milli valyutamızda devalvasiya olanda gördük ki, Azərbaycanın bank sistemi çox zəifdir". Ekspert bildirir ki, son vaxtlar bank sektorunun güclənməsinin bir sıra səbəbləri var:

> *"Azərbaycanda bank sektorunda xaricikapitallı bankların iştirak səviyyəsi aşağıdır*

> *Bank sektorunda müəyyən boşluqlar da mövcuddur*

"Dünya bazarında neftin və qazın qiyməti qalxıb, Rusiya Ukrayna ilə müharibədədir, dünyada enerji böhranıdır. O cümlədən bizim valyuta ehtiyatlarımız artıb və bunun hesabına Azərbaycan iqtisadiyyatına əlavə pul gəlib. Dövlət sektoru böyük vəsaitlər xərcləyir. Bundan özəl sektor da vəsait götürür. Bu puldan bank sektoruna düşür və onlar da güclənir. Bu, təbii ki, əhaliyə də müsbət təsir edir. Vətəndaş maaş alır, əməkhaqqına güvənib kreditlər götürür və banklar yenə fəallaşmağa başlayırlar. Amma təəssüf ki, hazırda Azərbaycanda şaxələnmiş bank sektoru yoxdur. Eyni zamanda, bank sektorunda müəyyən boşluqlar da mövcuddur".

**Sevinc**

# Qərb Ukraynanı qurban verir?!

***Rusiya-Ukrayna cəbhəsində yaşananlar bir daha Kiyevin çətin durumda olduğunu göstərir. Rusların Avdeyevkanı ələ keçirməsinin ardından bütün cəbhəboyu hücum cəhdlərini artırması yorğun və təchizatsız Ukrayna Ordusuna qarşı təzyiqləri gücləndirir. Bu proseslər yaşandığı anlarda isə hələ də Ukraynanı yağlı vədlər və reallaşması uzaq görünən vədlərlə müharibəyə sürükləyən Qərbdə Kiyevə yardım edilib-edilməməsi müzakirə edilir. ABŞ 3 aya yaxındır, yeni yardım paketini təsdiqləyə bilmir, Avropa İttifaqı isə ABŞ-nin yardımı olmadan Ukraynaya hərbi dəstəyi artırmaq niyyətində deyil.***

## Dünya

Bu siyasi oyunbazlıq isə milyonlarla insanı eviz və ölkəsiz qoyur. Şəhərlər işğal edilir, minlərlə gənc hansısa siyasi oyunların qurbanına çevrilərək həyatlarını itirir. Qərbdə baş verən prosesləri bu həddə gətirən səbəblər hansılardır? Son anda özündən



qat-qat güclü düşməni qarşısında dayanmaqda zorluq çəkən Ukraynaya Qərb arxadan son xain zərbəni endirəcəkmi?

Bir çox ekspertlər bildirir ki, əslində, Ukrayna Qərbin uzunmüddətli hədəflərində qurbandır. Silahların və hərbi yardımın ləngidilməsi isə «süründürməçi müharibə» taktikası ilə Rusiya ilə bağlı hədəflərə nail olmaqdır. Ukraynanın Qərbdən bütün məsələlərdə tam asılı vəziyyətə düşməsi nəticəsində Kiyevin etiraz etmək limiti də tükənir.

■ **ABŞ Konqresi Nümayəndələr Palatasının üzvləri Ukraynaya kömək üçün alternativ qanun layihəsi təklif ediblər, bu barədə "The Hill" yazır. Təşəbbüsün müəllifləri Ukrayna Silahlı Qüvvələrinin acınacaqlı vəziyyətini birbaşa olaraq Konqresdəki çıxılmaz vəziyyətin nəticəsi adlandırıblar.**

Məktubda respublikaçı deputat Brayan Fitzpatrik və demokrat Jared Qolden vurğulayıblar ki, Ukraynaya təcili olaraq hərbi yardım lazımdır, çünki Ukrayna Ordusu Rusiya qoşunlarının hücumlarına tab gətirmir. Konqresmenlər ABŞ-nin bu məsələdəki süründürməçi siyasətini özləri də etiraf edirlər. «Ukraynanın vəziyyəti hazırda qeyri-müəyyəndir. Onun azadlıq döyüşçülərinin döyüş sursatı tükənir və Şərqdən geri çəkilərək, Rusiyanın daha da irəliləməsinə zəmin yaradır. Bu, Konqresdəki durğunluğun birbaşa nəticəsidir", - deyə məktubda bildirilir. Qanun layihəsi, çətin ki, kifayət qədər səs toplaya bilsin.

■ **CNN yazır ki, Ukraynaya yardım məsələsi həll olunana qədər Kiyevi dəstəkləmək üçün ödənişləri Pentaqon özü ödəməlidir. Ukrayna Silahlı Qüvvələrinə yardımı davam etdirmək üçün ordu rəhbərliyi digər mühüm layihələrdən pul götürür.** Bu vəsait tezliklə tükənəcək. Yeni maliyyə ilinin başlandığı 2023-cü ilin oktyabrından ordu müxtəlif məqsədlərə, o cümlədən Ukrayna Ordusunun təlimi, hərbi texnikanın və ABŞ qoşunlarının Avropaya daşınması üçün 430 milyon dollardan çox xərcləyib. Hələlik hesablar ABŞ Ordusunun Avropa və Afrika Komandanlığı tərəfindən ödənilir. Ordu komandiri CNN-ə bildirib ki, əgər ordu başqa mənbələrdən vəsaiti geri çəkməsə, komandanlığın 3 milyard dollarlıq büdcəsi mayın sonuna qədər tükənəcək.

Amerikanın Ukraynaya ayırdığı maliyyə quruyub, lakin prezident bunu ən vacib vəzifə hesab etdiyi üçün Ukrayna qoşunlarının təlimi davam edir. ABŞ Ordusunun Avropa və Afrika Komandanlığının sözçüsü, polkovnik Martin o'Donnell CNN-ə bildirib ki, ABŞ Almaniyada Grafenvoehr təlim mərkəzində, təxminən, 1 500 ukraynalıya təlim keçir. ABŞ-nin Arizona ştatının Morris Milli Qvardiya Bazasında «F-16» qırıcılarını mənimsəyən ukraynalı pilotlar üçün təlimlər davam edir.

■ **Amerikalı keçmiş kəşfiyyatçı Skott Ritter analitik Qarland Niksonun «YouTube" kanalına verdiyi müsahibədə bildirib ki, Ukraynanın məğlubiyyəti başa çatan sövdələşmədir.** Onun sözlərinə görə, Qərbin yardımı artıq çox gecdir - onun böyük hissəsi ABŞ-də qalacaq və Kiyev, heç olmasa, nəsə alana qədər rus qoşunları Xarkov, Odessa və Nikolayevi işğal edəcək: «Mən Ukraynaya sonuncu səfərim zamanı bəzi regionların rəhbərləri və hərbi komandirlərlə danışmışam. Hamı razılaşır ki, may ayına qədər döyüş meydanında köklü dəyişiklik olacaq və sentyabra qədər hər şey bitəcək. Görünür, o mənada ki, rus qoşunları Dneprə çatacaq. Yəni Xarkov, Dnepropetrovsk, Nikolayev, Odessanı alacaqlar. Niyə? Çünki mübarizə aparacaq heç nə olmayacaq. Ukraynalılar, əlbəttə ki, "Xoş gəldin, içəri gir", - deməyəcəklər. Təbii ki, onların da şiddətli müqaviməti olacaq, lakin hərəkətlərin koordinasiyası, vahid cəbhə olmayacaq. Həqiqətən bitdi". Qərb kömək edə bilməz. Fərz edək ki, Nümayəndələr Palatasının sədri prezidentlik siyasəti oynamağı dayandırır - o, sadəcə olaraq belə edir və deyir: «Yaxşı, pul budur". Biz bilirik ki, bu 64 milyard dolların 60%-i dərhal müdafiə podratçılarımızın müqavilələrini ödəməyə gedəcək. Bu pulun böyük hissəsi, artıq ukraynalılara verdiyimiz hər şeyi əvəz etmək üçün istifadə olunacaq. Ukrayna bundan heç nə qazanmayacaq. Bütün bu pullar burada qalacaq. Ukraynaya isə nə gedəcəksə, istehsal edilməlidir. Pul olacaq, amma müqavilələr imzalanmalıdır. Sizə ayrılan pul əlinizdə olmayana qədər müqavilə bağlaya bilməzsiniz. Beləliklə, pul ayrılır - konkret olaraq müqavilə üçün. Bəzi müqavilələri yerinə yetirmək üçün bütün istehsal xətləri yaratmaq lazımdır, bunu bir gündə etmək olmaz. Digər hallarda, modernləşdirmə və potensialın genişləndirilməsi tələb olunur. Biz hələ istehsala başlamaq üçün insanları işə götürməli və öyrətməliyik.



Beləliklə, ilk partiyalar konveyerdən çıxanda, illər olmasa da, aylar keçəcək və sadəcə, vaxt çərçivəsini qeyd etdim. Nəzərinizə çatdırım ki, may ayına qədər hər şey həll olunacaq. Sentyabrda hər şey bitəcək. Ayrılan 64 milyardın heç bir senti sentyabr ayına qədər Ukraynaya çatmayacaq".

■ **"EXXpress" xəbər verir ki, NATO Hərbi Komitəsinin rəhbəri Qərbin strateji proqnozlaşdırmasının səhvlərini etiraf edib. 2023-cü ilin yazında alyans Ukraynanın əks-hücumuna böyük ümidlər bəsləyirdi - lakin bu, son nəticədə uğursuzluğa düçar oldu, ABŞ-ın yardımı quruyur və Rusiya bütün Avropa ölkələrindən daha çox silah istehsal edir.**

NATO-nun hərbi komitəsinin sədri, hollandiyalı admiral Rob Bauer səhvlərini açıq etiraf edib. "Financial Times" qəzetinə müsahibəsində o, 2023-cü ildə Qərbin vəziyyətin necə inkişaf edəcəyi ilə bağlı "həddən artıq optimist" olduğunu bildirib. O, inanırdı ki, "ukraynalılara lazım olan sursatları versəniz və onları öyrətsəniz, onlar qalib gələcəklər". Bu səhv idi.

NATO-nun Baş katibi Yens Stoltenberq Avropanın Amerika yardımının gecikməsi nəticəsində yaranan avadanlıq və sursat çatışmazlığını doldurmaq səylərini alqışlayıb. Eyni zamanda o, xəbərdarlıq edib ki, miqyasına və ABŞ-ın Avropa ilə müqayisə edilə bilməyəcəyi hərbi gücünə görə bu kəsiri tam aradan qaldırmaq mümkün deyil.

Stenford Universiteti Friman Spoqli Beynəlxalq Araşdırmalar İnstitutunun direktoru və ABŞ-nin Rusiyadakı keçmiş səfiri Maykl Makfol deyib ki, onun ukraynalı dostları arasında "əsl məyusluq hissi" var. Eyni zamanda, Rob Bauer 2024-cü ildə həddindən artıq bədbinliyə qarşı xəbərdarlıq edib: "Ukraynanın hələ də suveren dövlət olması və ukraynalıların 2022-ci ildə itirdiklərinin əhəmiyyətli bir hissəsini geri qaytarması faktı sadəcə diqqətəlayiqdir". BBC müxbirləri Katerina Xinkulova və Viktoriya Prisedskaya son iki ildə baş verənləri və münaqişələrin gələcəkdə hara gedə biləcəyini araşdırıblar.

Qışboyu davam edən şiddətli toqquşmalar nəticəsində hər iki tərəfdən çoxlu itkilər olub. Min kilometrə qədər uzanan cəbhə xəttinin forması 2022-ci ilin payızından bəri az dəyişib. Bir çox insanlar, o cümlədən bu yaxınlarda vəzifədən uzaqlaşdırılan Ukrayna Ordusunun baş komandanı Valeri Zalujnı və bəzi Kremlpərəst rus hərbi bloqçular da daxil olmaqla, hərbi dalana dirənməsindən danışır. Ukrayna əsgərləri uzun müddət döyüşdükləri ölkənin şərqindəki Avdeyevka şəhərindən fevralın ortalarında geri çəkiliblər. Rus qüvvələri bunu böyük bir qələbə kimi qiymətləndirib, çünki potensial olaraq daha dərin bir işğala yol aça bilər. Avdeyevka strateji mövqeyə malikdir.

Kiyev bildirib ki, qoşunların çıxarılması onun əsgərlərinin həyatını qorumaq məqsədi daşıyır və onun qüvvələrinin sayı və silah



gücü çoxdur. Bu, Rusiyanın ötən may ayında Baxmutu ələ keçirdikdən sonra əldə etdiyi ən böyük qazanc kimi qeydə alınıb. Bununla belə, Avdeyevka 2014-cü ildən Rusiyanın işğalı altında olan Ukraynanın Donetsk şəhərindən cəmi 20 km şimal-qərbdə yerləşir. Bu cür kiçik irəliləyiş hərbi bloqçuların ifadə etdiyi, işğalın əvvəlində dövlət təbliğatı kimi də təkrarlanan "paytaxt Kiyevi üç günə almaq" məqsədindən çox uzaqdır.

Hazırda Ukrayna ərazisinin, təxminən, 18 faizi Rusiyanın işğalı altındadır, o cümlədən 2014-cü ilin martında ilhaq edilmiş Krım və Rusiyanın ələ keçirdiyi Şərqi Donetsk və Luqansk vilayətlərinin böyük hissəsi də bura daxildir. Sanksiyalar Qərb ölkələrinin gözlədiyi nəticəni verməyib və Rusiya hələ də həm neftini satmağı, həm də hərbi sənayesi üçün hissələri və komponentləri təmin etməyi bacarır.

Rusiya lideri Vladimir Putinin hələ də bütün Ukraynanı istədiyinə dair geniş fikir var. Rusiya Prezidenti bu yaxınlarda amerikalı tok-şou aparıcısı Taker Karlsonla müsahibəsində tarix və münaqişə ilə bağlı fikirlərini bir daha dilə gətirib.

Putin deyib ki, Rusiyanın 2023-cü ilin dekabrında "xüsusi hərbi əməliyyat" adlandırdığı hədəflər dəyişməyib. Putin, həmçinin deyir ki, o, "neytral, silahsızlaşdırılmış" Ukrayna istəyir və NATO-nun öz təsir dairəsini Şərqə doğru genişləndirməsinə qarşı çıxmaqda davam edir.

Siyasi və hərbi analitiklər heç bir tərəfin təslim olmaq istəmədiyini və Putinin hakimiyyətdə qalacağını nəzərə alaraq, müharibənin uzun müddət davam edəcəyini proqnozlaşdırırlar. Qlobal təhlükəsizlik analitik mərkəzi «Globsec" müxtəlif nəticələrin ehtimalını qiymətləndirmək üçün bir çox ekspertin fikirlərini birləşdirən bir araşdırma aparıb. Bu araşdırmadan ortaya çıxan ən çox ehtimal olunan ssenari - 2025-ci ildən sonra da davam edəcək müharibədə hər iki tərəfin ağır itkilərə məruz qalacağı və Ukraynanın müttəfiqlərindən silah təchizatından asılı qalacağıdır. İkinci ən çox ehtimal olunan ssenari odur ki, Rusiya Yaxın Şərq, Çin-Tayvan və Balkanlar kimi dünyanın digər yerlərində münaqişələr baş verdiyi üçün gərginliyi artırmaq istəyir.

Hər ikisi də eyni dərəcədə ehtimal hesab edilən digər iki ssenaridə isə bildirilir ki, ya Ukrayna hərbi sahədə müəyyən irəliləyiş əldə edəcək, lakin müharibəni dayandırmaq üçün razılığa gələ bilməyəcək, ya da Ukraynanın müttəfiqləri Kiyevə dəstəyini azaldacaq və danışıqlar yolu ilə həllə nail olmaq üçün ona təzyiq edəcəklər. ABŞ-də prezident seçkilərinin potensial təsiri, həm də digər müharibələrin, xüsusən də İsrail-Həmas münaqişəsinin Ukrayna və Rusiya tərəfdarlarının prioritetlərinə və loyallığına necə təsir edəcəyi ilə bağlı qeyri-müəyyənlik qalmaqdadır.

✍ ***Ləman Əliyeva***

---



■ **Azərbaycan Respublikası Hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində 20 fevral tarixində Suriya Ərəb Respublikasının ərazisində yerləşən düşərgələrdə saxlanılan 5-i uşaq və 2-si qadın olmaqla, 7 nəfər Azərbaycan Respublikası vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib.**

Bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, ilk növbədə, repatriantların yeri, şəxsiyyəti və Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyən edilərək, daha sonra onların Türkiyə Respublikası ərazisinə keçidi təşkil olunub. İraq və Suriyadan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Türkiyə Respublikasına ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.



■ **Azərbaycan dövləti, xüsusilə Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın dəstəyi olmasaydı, ən yaxşı halda mən bu gün əlil ola bilərdim.**

Səhhətimdə yaranan problemlər məhz Mehriban xanımın yüksək diqqət və qayğısı, dövlətimizin dəstəyi nəticəsində aradan qaldırıldı. Bunun üçün Mehriban xanıma xüsusi təşəkkürümü bildirirəm. Bu fikirləri Heydər Əliyev Fondu tərəfindən Türkiyədə müalicə olunan Azərbaycanın Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev AZƏRTAC-a açıqlamasında ifadə edib. Səhhəti ilə bağlı danışan bəstəkar deyib: "Sağlamlıq hər kəs üçün çox vacibdir, lakin bəzən bunu unuduruq. Səhhətimdəki narahatlıq eyni vaxtda üç problemin yaranmasından irəli gəldi.



■ **Azərbaycanın energetika naziri Pərviz Şahbazov ABŞ Enerji Departamentinin katibi Cennifer Qranholm ilə görüşüb. Görüşdə ikitərəfli enerji əməkdaşlığının yeni mərhələdə inkişafı, təbii qaz və "yaşıl enerji"nin tədarükü, həmçinin COP29-la bağlı məsələlər müzakirə edilib. Bu barədə Energetika Nazirliyindən bildirilib.**

Məlumata görə, Azərbaycanın ənənəvi enerji təchizatçısı kimi həyata keçirdiyi enerji təhlükəsizliyi layihələri, eləcə də "Xəzər-Qara dəniz-Avropa" və "Mərkəzi Asiya-Azərbaycan-Avropa" "yaşıl enerji" dəhlizlərinin inkişafına dair fikir mübadiləsi aparılıb. Bu dəhlizlərin əhəmiyyəti regionlararası inteqrasiya, enerji təhlükəsizliyi və enerji keçidi aspektində dəyərləndirilib.



■ **Ötən il dekabrın 27-də Respublika Psixiatriya Xəstəxanası Publik Hüquqi Şəxsində müalicə alan B.V.-nin (şərti) yemək yeyərkən başının arxa hissəsindən şillə vurulması nəticəsində boğulub ölməsi barədə Baş Prokurorluğun Mətbuat xidmətinə media nümayəndələri tərəfindən çoxsaylı sorğular daxil olub.**

Baş Prokurorluqdan verilən xəbərə görə, həmin faktla bağlı hazırda Sabunçu Rayon Prokurorluğunda araşdırma aparılır. Araşdırma zamanı məhkəmə tibbi-ekspertizası və digər laborator müayinələr keçirilib, eləcə də zəruri prosesual hərəkətlər icra edilib. Məhkəmə-tibbi ekspertizanın rəyinə əsasən, şəxsin ölümünə səbəb tənəffüs yolları, udlaq və qırtlağın yad cisimlə tutulması nəticəsində baş vermiş mexaniki asfiksiya (boğulma) olub.



■ **Ermənistanın Daxili İşlər Nazirliyi Kamil Zeynallının beynəlxalq axtarışa verildiyini təsdiqləyib. Bu barədə Ermənistan Daxili İşlər Nazirliyinin mətbuat katibi Narek Sarkisyan deyib.**

O qeyd edib ki, Moskvada saxlanılan Kamil Zeynallı Ermənistan hüquq-mühafizə orqanları tərəfindən qətldə ittiham olunur. "Həmin şəxs qətl ittihamı ilə dövlətlərarası axtarışa verilib", - deyə o bildirib. Ermənistan DİN-in iddiasına görə, Kamil Zeynallı II Qarabağ müharibəsində guya erməni qocanın başını kəsərək onu qətlə yetirib. Qeyd edək ki, Kamil Zeynallı Moskvada saxlanılması barədə "Instagram" hesabında məlumat verib. K.Zeynallı Moskvanın Domodedovo hava limanında Bakıya qayıdarkən polis tərəfindən saxlanıldığını və şöbəyə aparıldığını bildirib.



■ **2023-cü ərzində ölkədə qeydə alınmış 36 811 cinayət hadisəsinin 10057-si və ya 27,3 faizi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olub ki, bu da 2022-ci ilin göstəricisindən 5,7 faiz azdır.**

Bu barədə Dövlət Statistika Komitəsi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən yayıb. Qeyd edilib ki, onların 65,3 faizini satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma, 30,8 faizini eyni hərəkətləri satış məqsədilə etmə, habelə bu maddələri istehsal etmə, göndərmə, yaxud qanunsuz olaraq saxlama və satış məqsədilə qanunsuz dövriyyəsi, 0,1 faizini isə digər cinayətlər təşkil edib.

# Kimdir müqəssir?!

**Məlum olduğu kimi, sosial şəbəkələrdə 156 nömrəli məktəbin XI sinif şagirdinin məktəbdən kənarda 2023-cü ildə IX sinifdən məzun olmuş qıza qarşı uyğunsuz və qeyri-etik davranışına dair görüntülər yayılıb. DİN-in yaydığı məlumata görə, artıq bununla bağlı cinayət işi qaldırılıb. Daxili İşlər Nazirliyi Mətbuat xidmətinin rəisi Elşad Hacıyev bildirir ki, məsələ nəzarətə götürülüb: "Araşdırmaların nəticəsindən asılı olaraq müvafiq tədbirlərin görülməsi təmin olunacaqdır". E.Hacıyev əlavə edib: "Bu hadisə daha bir məsələnin kilidini açır. Cəmiyyətin hər bir üzvü müəllimi, məktəbi qorumalıdır.**

## Cəmiyyət

Cəmiyyət olaraq müəllimə, məktəbə mənəvi dayaq olmalıyıq. Bu sahədə neqativ hallara qarşı polis tərəfindən qəti mübarizə aparılır, heç bir müraciətə laqeyd yanaşılmır. Uşaqların gələcəyi təkcə məktəbdən, müəllimdən asılı deyil. Valideyn varsa, haradadır? Təbii ki, məktəblilər arasında baş verən bu hadisə ilk deyil və görünən də odur ki, son olmayacaq. Bəs, görəsən, bu məsələdə günahkar valideyn yoxsa, məktəbdir? Uşaqlarda bu qədər aqressiyanın səbəbi nədir?

■ **Mövzu ilə bağlı qəzetimizə açıqlama verən psixoloq Vəfa Rəşidova qeyd edir ki, bu olduqca həssas mövzudur: "Biz bununla bağlı illərdir ki, danışırıq, amma insanlar əhəmiyyət vermirlər. Bu gün günahkar axtarırıq.** Birincisi, günahkar həmin ailədir. Belə bir deyim var: uşaq ailənin güzgüsüdür. Həqiqətən də hər bir uşaq öz ailəsinin güzgüsüdür. Əmin ola bilərsiniz ki, həmin əməli törədən şəxsə ailədə ondan da pis davranıblar. Yoxsa, bu davranışları o şəxs hardan öyrənib? Və o da ailədə gördüyü həmin davranışları eynilə özündən zəiflərin üzərində təkrarlayır. Təbii ki, bu hərəkəti özündən güclüyə

Onlar özləri o qədər aşağılanmış ailədə "formalaşıblar" ki, bu istər-istəməz özünü göstərməli idi. Nə vaxta qədər ki, valideynlər tərbiyə nədir bilməyəcəklər, doğru tərbiyə metodunu öyrənməyəcəklər, nə vaxta qədər ki, "Tik Tok"dan, ondan-bundan tərbiyə metodu öyrənib onu tətbiq edəcəklər, nə vaxta qədər ki, özləri savadsız olduqları halda psixoloqlara yuxarıdan-aşağı baxacaqlar, o vaxta qədər də bu kadrların betərlərini görəcəyik".



■ **Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov bildirir ki, uşağın böyüdülməsi, cəmiyyətdə layiqli fərd kimi yetişdirilməsində valideynin rolu önəmlidir:** "Yaşadığımız dövr və cəmiyyətdə valideyn məsuliyyətindən, həmçinin ailədə valideyn-uşaq münasibətlərinin düzgün qurulmamasından yaranan və bu diqqətsizlik və məsuliyyətsizlik səbəbindən uşaq hüquqlarının pozulmasına gətirib çıxaran bir sıra hallara rast gəlinir. Uşağın böyüdülməsi, cəmiyyətdə layiqli fərd kimi yetişdirilməsində valideynin rolu önəmlidir. Beynəlxalq təcrübədə valideyn məsuliyyəti kimi ən mühüm vəzifələr sırasına uşağın tərbiyə, təhsil, sağlamlıq və müalicəsi daxildir. Şagirdlər məktəbdə, küçədə məruz qaldıqları təzyiqləri, qeyri-etik davranışları evdə valideyinləri ilə bölüşə, valideyndən dəstək ala bilmədiyi üçün ortaya xoş olmayan mənzərə çıxır. Ailə Məcəlləsinin 58-ci maddəsi uşaqların tərbiyəsi və təhsilində valideynlərin hüquq və vəzifələrinə həsr olunub və valideynlərin uşaqlarını tərbiyə etməyə borclu olduqları, həmçinin onların tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıdıqları ayrıca vurğulanır. Yəni evdə valideynləri tərəfindən zorakılığa məruz qalan və düzgün davranış qaydalarında tərbiyə olunmayan uşaqlar cəmiyyətə təhlükə saçırlar. Bakı şəhəri 156 saylı orta məktəbin şagirdlərinin iştirakı ilə baş verən hadisə onu göstərir ki, valideynlər övladları ilə heç bir ünsiyyət qurmur, onların tərbiyəsi ilə məşğul olmur. Hər bir valideyn məsuliyyətini anlamalı və üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir".

Onun sözlərinə görə, valideyn məsuliyyətinin artırılması məqsədilə İnzibati Xətalar Məcəlləsinin 189-cu və 512-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanların tərbiyə və təlimi vəzifələrinin valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən üzrlü səbəblər olmadan yerinə yetirilməməsinə və yetkinlik yaşına çatmayanların xırda xuliqanlığına görə valideynlərə məsuliyyət nəzərdə tutulub: "Valideynlik təkcə dünyaya uşaq gətirmək, ona geyim, yemək almaq deyil. Valideynlik övladına mənəvi, psixoloji dəstək verməkdir. Nə qədər acınacaqlı olsa da, təəssüflə qeyd etməliyik ki, valideynlər sosial şəbəkələrdə vaxt keçirdikləri qədər övladları ilə vaxt keçirmirlər. Valideynlər əllərində telefon tutduqları qədər övladlarının əlini tutmurlar. Valideynlər sosial şəbəklərdə başqaları ilə danışdıqları qədər övladları ilə danışmırlar. Təbii ki, insanın şəxsiyyət kimi yetişməsində məktəbin də rolu danılmazdır. Məktəbin işi təkcə tədris deyil, həm də təlim-tərbiyədir. Təhsil böyük insan kütləsini öz ətrafında birləşdirib. Şagirdlər günün 5-6 saatını məktəbdə keçirirlər. Məktəblərdə hər bir şagirdlə psixoloji test aparılmalı, şagirdlərin psixoloji pasportu hazırlanmalıdır. Məktəbin də bununla bağlı konkret öhdəliyi var. Məktəblərin təlim-tərbiyə işləri üzrə direktor müavini, psixoloqu var. Çox sadə qaydada hər gün tənəffüslərdə dəhlizləri gəzsəniz, onların kimliyini müəyyənləşdirəcəksiniz, biləcəksiniz ki, hansı şagirdin psixoloji pozuntusu var".

Ekspertin fikrincə, məktəblərin bu məsələdə fəaliyyəti aşağıdır: "Hansısa cəza olanda da hamı məktəbin üstünə gəlir ki, məgər siz mənimlə bərabər uşaq böyütmüsünüz ki, cəzalandırırsınız? Bir neçə gün əvvəl təlim-tərbiyə edən direktoru öz övladı öldürdü. Yaxud Gəncədə bıçaqlanma hadisəsi baş verdi. Bu, ona görə baş verir ki, məktəb-valideyn-şagird üçbucağı işləmir.Valideynlər bu üçbucağı pozur. Bu gün Azərbaycan məktəblisi sosial şəbəkələrdə, telefonda, seriallarda böyüyür. Valideyn-müəllim bu prosesin iştirakçısı deyil. Yekunda da bu cür hadisələr baş verir".

■ **Mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu isə bildirir ki, bu gün məktəblilər arasında yaşanan xoşagəlməz hadisələrin əsas səbəbi ilk növbədə cəmiyyətin özündə baş verən gərginləşmədir:** "Cəmiyyət çox mürəkkəb və həssas olub. Cəmiyyətdə olan həmin o gərginlik məktəbə daşınır. Əvvəl belə məsələlərin qarşısını təhsil ocaqlarında direktorlar, müəllimlər, sinif rəhbərləri alardı, bu cür prosesləri onlar tənzimləyərdi, amma indi cəmiyyətdən məktəbə daşınan mürəkkəblik o qədər dərinləşib ki, artıq onu əvvəlki şəkildə idarə etmək mümkün deyil".

Sosioloq deyir ki, məktəblərdə mütləq "Sosial iş xidməti" yaradılmalıdır: "Bununla bağlı artıq 3 ildir ki, Elm və Təhsil Nazirliyinə layihələr təqdim edirəm. Hələ də bir məlumat yoxdur. "Sosial iş xidməti" ondan ötrüdür ki, məktəblərdə olan mühitə, şagirdlərin davranışına nəzərət olunsun, onların təlim-tərbiyə, təbliğat işlərinə kömək edilsin, məktəblə valideynlər arasında əlaqə gücləndirilsin. "Sosial iş xidməti" olsa, problemlər öz həllini tapar. Təəssüf ki, bu xidməti yaratmaq istəmirlər. Deyəndə də "Məktəblinin dostu" və psixoloqları nümunə göstərirlər. Axı onların işi tam deyil. "Sosial iş xidməti" tamamilə fundamental olaraq sistemli şəkildə baş verən hadisələrlə məğul olur. Nə qədər ki, bu xidmət yoxdur, problemlər öz həllini tapmayacaq. Uşaqlar da bir-birlərinə qarşı xoşagəlməz hadisələr törədəcəklər".

*"Onlar özləri o qədər aşağılanmış ailədə "formalaşıblar" ki, bu istər-istəməz özünü göstərməli idi*

*Bu gün Azərbaycan məktəblisi sosial şəbəkələrdə, telefonda, seriallarda böyüyür*

*Məktəblərdə mütləq "Sosial iş xidməti" yaradılmalıdır*

✍ **Sevinc**

# Əmlak girovuna görə bu rayonlar öndədir

**2023-cü il ərzində ölkədə mənzillərin ən çox girov qoyulduğu ərazilər açıqlanıb. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin yaydığı məlumata görə, ötən il ən çox girov qoyulan ərazilər Bakı, Abşeron və Sumqayıt olub. Bildirilib ki, Azərbaycanda girov qoyulan əmlaklar sırasında mənzillər, torpaq sahələri və fərdi yaşayış evləri üstünlük təşkil edir. Ən çox girov qoyulan daşınmaz əmlak isə mənzildir. Belə ki, 2023-cü il ərzində 45.532 mənzil üzrə ipoteka müqaviləsi bağlanılıb.**

## Kredit

Bu dövrdə girov qoyulmuş ümumi 81.762 əmlakdan 16.750-si torpaq sahəsinin, 11.866-sı isə fərdi yaşayış evinin payına düşür. Qeyd etdiyimiz kimi, 2023-cü il ərzində ölkədə mənzillərin ən çox girov qoyulduğu ərazilər Bakı, Abşeron və Sumqayıtdır. Girov qoyulan mənzillərin 92,9 faizi bu üç ərazi idarəsinin payına düşür. Mənzillərin ən az girov qoyulduğu bölgələr isə 9 saylı Qəbələ (17 müqavilə), 14 saylı Şamaxı (23 müqavilə) və 11 saylı Şəmkir (26 müqavilə) ərazi idarələridir.

2023-cü il ərzində girov qoyulan fərdi yaşayış evlərinin sayına görə də paytaxt Bakı ilk yeri tutur. Bununla belə, bölgələrdə də bu kateqoriya üzrə aktivlik



müşahidə olunur. Belə ki, bölgələrdə fərdi yaşayış evlərinin ən çox girov qoyulduğu ərazilər 3 saylı Gəncə, 5 saylı Xaçmaz, 7 saylı Bərdə və 10 saylı Lənkəran ərazi idarələrinin əhatə etdiyi rayonlardadır.

Hesabat dövrü ərzində ən çox torpaq sahəsinin girov qoyulduğu ərazilər sırasında ilk üçlüyü müvafiq olaraq 5 saylı Xaçmaz, 1 saylı Bakı və 4 saylı Abşeron ərazi idarələri tamamlayır. Torpaqların ən az girov qoyulduğu bölgələr isə 16 saylı Ucar (215 müqavilə) və 8 saylı Cəlilabad (239 müqavilə) ərazi idarələrinin əhatə etdiyi rayonlardır. Maraqlıdır, görəsən, Azərbaycanda girov qoyulan əmlakların böyük hissəsi niyə Bakı, Sumqayıt və Abşeronun payına düşür?

■ **Məsələni qəzetimizə şərh edən "MBA Consulting Group" şirkətinin direktoru Nüsrət İbrahimov deyib ki, bu gün iqtisadiyyatın əhəmiyyətli hissəsi məhz Bakı, Sumqayıt və Abşeronda yerləşir:** "Ümumiyyətlə, girov məsələsi, kreditin təminatlılığının bir hissəsidir. Kreditlər verilərkən təminatlar tələb olunur. Əsas şərtlərdən biri həmin kreditlərin qarşılığında müəyyən təminatların verilməsidir. Burada üçüncü tərəflərin verdiyi təminat, hesabda olan vəsaitlər də ola bilər. Amma ən geniş tətbiq ediləni daşınar və daşınmaz əmlak girovlarıdır. Xüsusilə biznes kreditlərində daşınmaz əmlak girovlarından daha çox istifadə edilir. Bildiyimiz kimi, bu gün iqtisadiyyatın əhəmiyyətli hissəsi Bakı, Sumqayıt və Abşeronda yerləşir. İş adamları da bizneslərini məhz bu ərazilərdə qururlar. Ona görə də adıçəkilən ərazilər girov qoyulan əmlakların əhəmiyyətli hissəsini təşkil edir. Digər tərəfdən hər bir ərazinin biznes aktivliyi var. Bank da kredit verərəkən öz riskini qiymətləndirir. Bank riskini qiymətləndirərkən ilk növbədə bazarın aktivliyini nəzərə alır. Və likvidliyi hesablayır. Tutaq ki, Bakıda, Sumqayıtda likvidlik daha yüksəkdir, nəinki Naxçıvanda, Gəncədə. Ona görə də bankların çoxu maraqlıdır ki, girovlar Bakı, Abşeron, Sumqayıt kimi ərazilərdə yerləşsin.

Yəni, lazım olduqda həmin girovu qısa müddətdə yüksək qiymətə sata bilsinlər". Ekspert onu da vurğulayır ki, paytaxtda girov qoyulan fərdi yaşayış evləri, əsasən, bağ evləridir: "İş adamlarının əksəriyyətinin Bakıda bağ evi mövcuddur. Həmin əmlaklar da girov qoyularkən likvidliyi nəzərə alınır. Məsələn, bu gün dəyəri 200 min manata qədər olan bağ evlərinin likvidliyi daha yüksək hesab edilir. Dəyəri 5-6 milyon manat olan bağ evlərini satmaq problemlidir. Həmin əmlakların bütöv Azərbaycanda cəmi 3-4 alıcısı var. Onların da hər birinin 6-7 bağı mövcuddur".

*"Bankların çoxu maraqlıdır ki, girovlar Bakı, Abşeron, Sumqayıt kimi ərazilərdə yerləşsin*

✍ **Sevinc**

## Səhiyyə

**Son illər dünyada şəkərli diabet xəstəliyindən əziyyət çəkənlərin sayı artır. Hazırda əhalisi arasında ən çox diabet xəstəsi olan ölkə Pakistandır. Pakistan əhalisinin 30,8 faizi diabetdən əziyyət çəkir. Bu siyahıda ilk onluqda Küveyt 24,9 faiz, Misir 20,9 faiz, Qətər 19,5 faiz, Malayziya 19 faiz, Səudiyyə Ərəbistanı 18,7 faiz, Meksika16,9 faiz, Türkiyə14,5 faiz, Banqladeş 14,2 faiz, Şri Lanka isə11,3 faizlə qərarlaşıb. Yeri gəlmişkən, son 10 ildə Azərbaycanda da şəkər xəstələrinin sayı, təxminən, 3 dəfə artıb.**

# Diabet xəstələrinin sayı artır



Statistika Komitəsinin məlumatına əsasən, Azərbaycanda hazırda qeydiyyatda olan şəkər xəstələrinin sayı 320 mindən çoxdur. Bu rəqəm 2010-cu ildə 120 min təşkil edib. Müxtəlif araşdırmalara görə, dünya ölkələrində də şəkərli diabet xəstələrinin sayı artır. Artım sürəti Azərbaycandakı qədər deyil. Dünya Diabet Federasiyasının məlumatına görə, 2011-ci ildə Gürcüstanda hər 1 000 nəfərə 104 diabet xəstəsi düşürdüsə, bu rəqəm Azərbaycanda 167 idi. 2021-ci ildə isə bu rəqəm Azərbaycanda 397.1, Gürcüstanda 190.6 təşkil edib. Federasiyanın 2045-ci ilə olan təxminlərinə görə, Azərbaycanda bu rəqəm 573-ə qalxacaq, amma Gürcüstanda 179.1 təşkil edəcək.

Məlumat üçün vurğulayaq ki, Azərbaycanda şəkər xəstələrinin müalicəsi dövlət tərəfindən qarşılanır. Belə ki, "Şəkərli diabet xəstəliyindən əziyyət çəkən şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Dövlət Proqramına əsasən, şəkərli diabet xəstələrinin illik tibbi yardım, zəruri müayinələr, insulin və digər şəkərsalıcı dərman preparatları ilə təmin edilməsi dövlət büdcəsi hesabına həyata keçirilir. Buna görə də hər il dövlət büdcəsindən şəkərli diabet xəstələrinin sayına uyğun olaraq vəsait ayrılır. 2024-cü ildə şəkər xəstələrinin müalicəsinə 58,3 milyon manat ayrılacaq. Maliyyə Nazirliyinin açıqlamasına əsasən, 2024-cü ildə şəkərli diabet üzrə tədbirlərə 58,3 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Keçən il eyni məqsədlə 53 milyon manat ayrıldığını nəzərə alsaq, 5,3 milyon manat və ya 10 faiz artım deməkdir. 2018-ci ildə isə bu rəqəm 36 milyon manat olub. Bəs, görəsən, ölkəmizdə şəkərli diabetdən əziyyət çəkən xəstələrinin sayının artmasına səbəb nədir?

■ **Mövzu ilə bağlı Azərbaycan Diabet Liqasının sədri, həkim-endokrinoloq Yeganə Sultanova bildirib ki, son illər diabet xəstələrinin sayında artım təkcə Azərbaycanda deyil, bütün dünyada müşahidə olunur.**

Bu xəstəliyin əsas yayılma səbəbi, qeyri-sağlam qidalanma, oturaq həyat tərzi, piylənmədir. Onun sözlərinə görə, bu əsasən ikinci tip şəkərli diabet xəstələrinə aiddir: "Bu gün şəkər xəstələrinin 85 faizini ikinci tip diabetli xəstələr təşkil edir. Təbii ki,şəkərli diabetin qarşısını almaq üçün düzgün qidalanma, fiziki aktivlik və zərərli vərdişlərdən uzaq durmaq vacib amildir".

Y.Sultanova şəkərli diabetin erkən aşkarlanmasının vacib olduğunu söyləyib: "Məsələn, Azərbaycan Diabet Liqası 2014-cü ildə 1200 nəfəri müayinə edərək onlardan 235 nəferində ikinci tip şəkərli diabet aşkarladı. Bundan sonra onlar Respublika Endikrinoloji Mərkəzə yönləndirildi. Əslində, bu insanların çoxu şəkər xəstəsi olduğundan xəbərsiz idi. Ona görə də şəkərli diabetin erkən aşkarlanması olduqca vacibdir". Y. Sultanova bildirir ki, xəstəlik erkən aşkarlandıqda vaxtında müalicə ağırlaşmalardan qoruyur: "Digər hallarda xəstələr ağırlaşdıqdan sonra diabet xəstəsi olduqlarından xəbər tuturlar ki, bu da yanaşı xəstəliklərin yaranmasına gətirib-çıxarır. Belə xəstələrdə ürək qan-damar xəstəlikləri, insult, gözün görmə qabiliyyətinin itməsi, böyrək funksiyalarının itirilməsi ilə nəticələnir".

■ **Mövzu ilə bağlı tibb elmləri doktoru, professor Adil Qeybulla isə deyib ki, xəstəliyin yaranmasında həm də irsi faktor rol oynayır: "Şəkərli diabetli xəstələrin sayı təkcə Azərbaycanda yox, dünyada artmaqdadır.** Diabetin birinci növü daha çox anadangəlmə, həmçinin, müxtəlif səbəblərlə bağlı insulindən asılı olur. İkinci tip daha çox həyat tərzinə bağlıdır, amma burada da irsi faktorlar rol oynayır. Orqanizmə daxil olan qida ilə sərf olan kalori arasında balans olmayanda, orqanizmdə həddən artıq depolaşma baş verəndə, çəki artanda və tədricən mübadilə pozulduqda bədəndə insulin rezistenliyi baş verir. Bu da şəkərə gedən yol - ilk addımdır. Bu xəstələr yetərincə çoxdur". O, insanlar arasında artan tənbəlliyin, passiv həyat tərzinin də bu xəstəliyə yol açdığını qeyd edib: "İnsanlar arasında tənbəllik artıb, yağlı, şirin qidaların qəbulu çoxalıb. İnsanlar çox yeyib, az hərəkət edirlər. Bu, şəkərli diabetin əsasında dayanan faktorlardır. Bunun həll yolu kütləvi idmandır, insanların fəallığını artırmaqdır ki, biz bunu arayıb tapmalıyıq. Əks halda, dünyada olduğu kimi bizdə də bu tendensiya davam edəcək. Şəkərli diabetli xəstələrin olmasının bir neqativ cəhəti ondan ibarətdir ki, bu, əmək qabiliyyətinin enməsi ilə müşahidə olunan xəstəlikdir. Xəstə əmək qabiliyyətini itirdikcə dövlət, ölkə və özləri üçün problem yaradır. Həm ölkəyə iqtisadi zərər, həm də büdcəyə əlavə yük olurlar. İnsan şəxsi əmək qabiliyyətini itirdikcə, daha çox faydalılıq əmsalını da itirir. Hər birimiz sağlam həyat tərzi keçirmək, yaşamaq üçün düşünməliyik. Bundan başqa, pis vərdişlər, siqaret çəkmək, aşırı alkoqol qəbulu da şəkərli diabetin baş verməsinə, onun inkişafına, onun tez ortaya çıxmasına səbəb olan amillərdəndir".

*"Bu xəstəliyin əsas yayılma səbəbi, qeyri-sağlam qidalanma, oturaq həyat tərzi, piylənmədir*

*Xəstəliyin yaranmasında həm də irsi faktor rol oynayır*

✍ **Sevinc**

# Güzəştli şərtlərlə pensiya hüququ

**Azərbaycanda pensiya yaşının yüksək olması zaman-zaman müzakirə olunan məsələlərdəndir. Qeyd edək ki, hazırda pensiya yaşı həddi kişilərdə 65 il, qadınlarda isə 63 il 6 aydır. Bununla yanaşı, müəyyən sahələrdə çalışanların digərlərindən daha tez pensiyaya çıxmaq hüququ var. Söhbət güzəştli şərtlərlə pensiya almaqdan gedir. Bəs, görəsən bu kateqoriyaya hansı peşələr aiddir? Azərbaycanda kimlərin güzəştli şərtlərlə pensiya almaq hüququ var?**



## Sosial



**Fuad İbrahimov,**
iqtisadçı-ekspert

“

*Azərbaycanda pensiya yaşı qonşu ölkələrin praktikasına uyğun olaraq təyin edilib*

Qeyd edək ki, “Əmək pensiyaları” haqqında qanuna əsasən, aşağıdakı sahələrdə çalışan şəxslərin güzəştli pensiya almaq hüququ mövcuddur:

*- axırıncı iş yerindən asılı olmayaraq, Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıda (Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı) nəzərdə tutulan işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların pensiya yaşı 5 il azaldılmaqla;*

*- hipovizqanizm xəstəliyinə tutulan şəxslərin (liliputların) və fizioloji mütənasibliyi pozulmuş cırtdanboy şəxslərin azı 5 il sığorta stajı olduqda pensiya yaş həddi 20 il azaldılmaqla;*

*- mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işlə əlaqədar vəzifələrdə çalışanların həmin işlər üzrə azı 25 il, səhhətinə görə uçuş işindən azad olunmuş şəxslərin isə həmin işlər üzrə azı 20 il sığorta stajı olduqda pensiya yaş həddi 15 il azaldılmaqla;*

*- prokurorluq orqanlarında azı 35 il qulluq etmiş prokurorluq işçilərinin;*

*- yaşa görə prokurorluq orqanlarında qulluğuna xitam verilmiş, 35 il və daha çox ümumi iş stajı olan, bu stajın azı 17 il 6 ayını prokurorluq orqanlarında qulluq etmiş prokurorluq işçilərinin;*

*- Hərbi xidmətdən buraxılanadək 25 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçuların;*

*- hərbi xidmətdən yaşa görə buraxılmış, 30 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 15 ilini hərbi xidmətdə keçirmiş şəxslərin;*

*- hərbi xidmətdən xəstəliyinə və ya səhhətinin məhdud imkanlarına, habelə ştatların ixtisarına görə buraxılmış və buraxıldığı gün 48 və daha çox yaşı, 30 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 15 ilini hərbi xidmətdə keçirmiş şəxslərin;*

*- hərbi xidmət müddəti 15 il və daha çox olmaqla, Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması işlərində köçürmə zonasında iştirak etmiş hərbi qulluqçuların;*

*- ədliyyə, miqrasiya və fövqəladə hallar orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə azı 35 il qulluq stajı olan şəxslərin.*



**Vüqar Bayramov,**
millət vəkili

“

*Belə hüququn 5 uşağı deyil, 3 və daha artıq övladları olan qadınlara şamil olunması daha məqsədəuyğun olardı*

Bundan başqa, 5 və daha çox uşaq dünyaya gətirib, övladlığa və ya qəyyumluğa götürüb onları 8 yaşınadək tərbiyə etmiş və böyütmüş qadınların yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var.



Eyni zamanda, əlilliyi müəyyən edilmiş uşağını 8 yaşınadək tərbiyə etmiş anaların yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ mövcuddur.

Həmçinin ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı və ya əlilliyi olan uşağını növbəti nikah bağlamadan, təkbaşına 8 yaşınadək böyüdən ataların, habelə 5 və daha çox uşağı övladlığa götürüb təkbaşına 8 yaşınadək böyüdən ataların, eyni zamanda, 5 və daha çox uşağı 8 yaşınadək böyüdən qəyyum kişilərin bu yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var. Eyni zamanda, şəxsin güzəştli şərtlərlə pensiyaya çıxması onun gözlənilən pensiya ödənişi müddətinə təsir etmir. Yəni, şəxs 60 və ya daha erkən yaşda pensiyaya çıxmasına baxmayaraq, ona da digərləri kimi 12 il (144 ay) pensiya ödənilməsi nəzərdə tutulur. Lakin ölkə üzrə orta ömür müddətini (77 yaş) nəzərə alanda, belə şəxslərin daha çox müddətdə (ən azı 16 il) pensiya aldıqlarını demək mümkündür. Nəhayət, vaxtından əvvəl pensiyaya çıxmaq barədə danışdıqda iki 2 vacib məqama diqqət yetirmək lazımdır. Birincisi, vaxtından tez pensiyaya çıxmaq hüququna malikdir - yəni pensiyaya çıxıb-çıxmamaq həmin şəxslərin qərarından asılıdır. Yəni istəməyən şəxs bu hüquqdan istifadə etməyə bilər. İkinci məqam odur ki, burada nəzərdə tutulan hüquq şəxsin axırıncı iş yerinin harada olmasından asılı deyil.

**■ Mövzu ilə bağlı iqtisadçı-ekspert Fuad İbrahimov bildirir ki, Azərbaycanda pensiya yaşı qonşu ölkələrin praktikasına uyğun olaraq təyin edilib: “Pensiyada yaş həddi aktual məsələlərdən biridir.**

Bir çoxları Avropa ölkələrinin praktikasına əsaslanaraq həddin dəyişilməsini istəyirlər. Elə ölkələr var ki, pensiya yaş həddi bizdən xeyli yüksəkdir, bəziləri isə çox aşağıdır. Düşünürəm ki, vətəndaş nə qədər tez pensiyaya çıxarsa, o qədər xoş güzəran görər. Bir çox vətəndaşlarımız var ki, təqaüdə çıxandan sonra işləmək arzusunda olurlar. Amma ümumilikdə, ilk növbədə, təqaüdə qədər dayanıqlı həyat təşkil olunduqdan sonra yaş həddinin aşağı salınmasının tərəfdarıyam”.

**■ Məsələ ilə bağlı millət vəkili Vüqar Bayramov isə bildirib ki, bir müddət əvvəl Nazirlər Kabineti “Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı”na dəyişiklik edib:**

“Yeni dəyişikliklər ilə güzəştli şərtlər ilə pensiyaya çıxma hüququ olan vətəndaşların siyahısı genişləndirilib. Belə ki, neft mədənlərində, neftin saxlanılması və ötürülməsi sahəsində nəzarət-ölçü cihazları və avtomatika qurğularının təmiri və xidməti işləri ilə məşğul olan nəzarət-ölçü cihazları və avtomatika üzrə çilingərlər, əsas istehsalat sahələrində neft-mədən avadanlıqlarının, kompressor qurğularının təmiri ilə bilavasitə məşğul olan təmirçi çilingərlər, əmtəə operatorları, nasos qurğularının maşinistləri, dəniz özüllərində, estakadalarda stasionar kranların kran maşinistləri, qazın yığılması üzrə operatorlar, qazpaylayıcı stansiyanın operatorları daha tez pensiyaya çıxa biləcəklər”. Deputatın fikrincə, uşaqların sayına görə qadınların pensiya yaşının mütənasib azaldılması da məqsədəuyğundur:

“Hesab edirəm ki, belə hüququn 5 uşağı deyil, 3 və daha artıq övladları olan qadınlara şamil olunması daha məqsədəuyğun olardı. Bu, həmin vətəndaşların sosial təminatının daha da gücləndirilməsinə xidmət edə bilər”.

✍ **Sevinc**

## HƏFTƏ REYTİNQ

### Həftənin SATQINI



“İrəvan Ukrayna məsələsində Moskvanın müttəfiqi deyil”. Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Almaniyada erməni diasporunun nümayəndələri ilə görüşündə deyib. “Mən çoxdan deyirəm ki, Ermənistan Ukrayna məsələsində Rusiyanın müttəfiqi deyil. Bu bizim səmimi mövqeyimizdir. Bu vəziyyətə təsir edə bilməməyimiz bizim üçün çox ağrılıdır. Ukrayna xalqı bizim üçün dost xalqdır”, - Paşinyan qeyd edib.

### Həftənin HƏDİYYƏSİ



Rusiya Prezidenti Vladimir Putin Şimali Koreya lideri Kim Çen Ina yerli istehsal olan avtomobil hədiyyə edib. Bu barədə məlumatı Koreyanın Mərkəzi Teleqraf Agentliyi yayıb. Məlumatda Putinin Şimali Koreya liderinə məhz hansı avtomobili hədiyyə etməsi açıqlanmasa da, hədiyyənin fevralın 18-i Kim Çen Inın bacısı Kim Yo Çjona təqdim edildiyi qeyd olunub. Kremlin rəsmi sözçüsü Dmitri Peskov sözlərinə görə, Putin Kim Çen Ina “Aurus” markalı avtomobil bağışlayıb. Məsələ ilə bağlı digər detallar açıqlanmayıb.

### Həftənin ARZUOLUNMAZI



İsrailin xarici işlər naziri İsrael Kaç Braziliya Prezidenti Lula da Silvanı “persona non grata” (“arzuolunmaz şəxs”) elan edib. İ.Kaç bununla bağlı məlumatı öz “X” hesabında paylaşıb. Məlumata görə, buna səbəb Braziliya liderinin Qəzza zolağındakı müharibəni Holokostla müqayisə etməsi olub. Qeyd edək ki, fevralın 18-i Lula da Silva bildirib ki, Qəzza zolağında baş verənlər soyqırımıdır və o bu hadisələri Adolf Hitlerin yəhudilərə qarşı törətdiyi əməllərlə müqayisə edib.

### Həftənin GƏLİNİ



Türkiyəli müğənni Ebru Gündeşin dördüncü dəfə ailə həyatı quracağı iddia olunur. Sənətçi iş adamı Murad Özdemirlə eşq yaşamağa başlayıb. Belə ki, 2022-ci ilin iyulunda Selin Özdemirdən boşanan Murat Özdemirin 2023-cü ilin sonlarına doğru Ebru Gündeşlə görüşməyə başladığı məlum olub. Cütlüyün tezliklə evlənməyə hazırlaşdığı bildirilir. Qeyd edək ki, Özdemirin ilk həyat yoldaşından 2, ikinci yoldaşından isə 1 övladı var.

### Həftənin ÜZRÜ




“Mançester Siti”nin baş məşqçisi Pep Qvardiola futbolçu Kalvin Fillipsdən üzr istəyib. “Qafqazinfo” xəbər verir ki, buna səbəb baş məşqçinin 2 il öncə futbolçuya məşq etmək üçün uyğun çəkidə olmadığını deməsidir. P. Qvardiola jurnalistlərə açıqlamasında yarımmüdafiəçi ilə əvvəlcədən bu barədə danışdığını bildirib: “Mən ondan üzr istəyirəm. Şərh verməzdən əvvəl onunla danışmışam. Burada bir şey deməzdən əvvəl komanda və oyunçularla müzakirələr edirəm”.

### Həftənin ATASI



Bakıda kişinin azyaşlıya qarşı zorakılıq etməsini əks etdirən görüntülər yayılıb. Videoda onun balaca qıza qarşı kobud davranması, saçını dartması və başına güclü zərbələr vurması görünür. Bundan qorxan uşaq ağladığı zaman isə kişi azyaşlıya bunu belə irad tutur. DİN-in Mətbuat xidmətinin əməkdaşı polis mayoru Anar Qafarov bildirib ki, sözügedən görüntülər araşdırılıb. Onun sözlərinə görə, azyaşlıya qarşı zorakılıq edən Bakı sakini Elnur Məmmədov barəsində cinayət işi başlanılıb.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Rusiya Navalnini anır**

“

## Diabet xəstələrinin sayı artır

**Yeganə Sultanova,**
ADL-nın sədri,
həkim-endokrinoloq

Bu xəstəliyin əsas yayılma səbəbi, qeyri-sağlam qidalanma, oturaq həyat tərzi, piylənmədir.

▸▸ Səh. 7

## STATİSTİKA



**■ 2023-cü il ərzində respublika ərazisində avtobus və mikroavtobus sürücülərinin təqsiri ucbatından 42 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 24 nəfər həyatını itirib, 37 nəfər isə yaralanıb.**

Qeyd olunub ki, maddi zərərlə nəticələnən 2560 yol-nəqliyyat hadisəsində sözügedən sahədə çalışan sürücülərin bilavasitə iştirakı da, bu sahədə vəziyyətin qənaətbəxş olmadığından xəbər verir.



▸▸ Səh. 4

## Hansı şagirdlər məktəblərini dəyişə bilməzlər?